www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 fevral 2016-cı il Bazar ertəsi № 29 (6350) Qiymәti 60 qәpik

**Xəbər**

## Yeyib-içdikdən sonra meşəyə aparıb öldürdülər - Abşeronda...

yazısı səh.14-də

**Gündəm**

### "Allaha şükür etməliyik ki, müharibə başlamadı"- professor İlham Rəhimovun müsahibəsi



**Hüquqşünas-alim**: "Biz effektli məhkəmə-hüquq islahatları aparsaq, bunun iqtisadiyyata da effektli təsiri olacaq..."

yazısı səh. 8 və 9-da

### Manata inam nə vaxt qayıdacaq? - ekspertlər proqnoz verdi

yazısı səh.12-də

### "Minsk Qrupunun formatı dəyişdirilə bilər"

**Tanınmış rusiyalı politoloq:** "Müharibənin alovlanması üçün bütün faktorlar var...."

yazısı səh.11-də

### Ailə münaqişəsi, isti "peraşki" qonaqlığı və Mehriban Zeynalova ilə söhbət...

yazısı səh.13-də

*İqtidaryönlü deputat:*

### "Müxalifətin özünə antiböhran proqramı lazımdır"

yazısı səh.6-da

### Azərbaycanda benzin ən azı, 30% ucuzlaşa bilər

yazısı səh.7-də

### 2020-ci ilə qədər dünyada intiharların sayı kritik həddə çatacaq

yazısı səh.15-də

### Media əhlindən xanım müğənnilərə irad: "Əri ilə fotosunu paylaşır, sonra da deyir ki..."

yazısı səh.14-də

### Ukraynada azərbaycanlı insanların gözü qarşısında öldürüldü

yazısı səh.2-də

### Məşhurlardan kim sevgi və ya görücü üsulu ilə evlənib? - sorğu

yazısı səh.12-də

## Rail Rzayevin açılmamış qətlinin 7-ci ilində sükut pozuldu

# QƏTLƏ YETİRİLƏN GENERALIN QIZINDAN ŞOK AÇIQLAMALAR - SİRLƏR AÇILIR

Rahilə Rzayeva istintaqla bağlı sensasion faktlar açıqladı; Hərbi-Hava Qüvvələrinin eks-komandanının həyat yoldaşı Eldar Mahmudovu niyə məhkəməyə vermək istəyirmiş?; "Atamı vaxtında hospitala çatdırmayıblar", deyən qızı hansı yüksək vəzifəli məmurlardan narazılıq etdi...




yazısı səh. 4 və 6-da

## Azərbaycan, Rusiya və İran qazı ətrafında rəqabət sərtləşir - "böyük oyun" başlayıb

Kaladzenin qəfil Bakı ziyarətinin və Gürcüstan prezidentinin "Qazprom" xəbərdarlığının əsl mahiyyəti; Ərdoğanın Bakı səfərində də qaz mərkəzi mövzulardan olacaq; Ermənistan isə sanksiyalardan qurtulmuş İranın təbii qazı ilə Kremli şantaj etməyə çalışır...

yazısı səh.5-də



### Qızı doğum günündə Tofiq Yaqublu ilə görüşdü

yazısı səh.3-də



*Vahid Əhmədov:*

### "Mərkəzi Bank dollarla kredit məsələsini həll etməlidir..."

yazısı səh.12-də



*Fəzail Ağamalı:*

### "Özlərində cəsarət tapıb istefaya getməlidirlər...

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016

## Ukraynada azərbaycanlı insanların gözü qarşısında öldürüldü

**Ukraynanın Odessa şəhərində əslən Azərbaycandan olan 32 yaşlı şəxs qətlə yetirilib. "Report" xəbər verir ki, bu barədə "Dumskaya" nəşrinə Baş Milli Polis İdarəsinin mətbuat xidmətindən məlumat verilib.**

Qətl ötən gün axşam saatlarında şəhərin Admiral prospektində yerləşən "Vimpel" barı yaxınlığında baş verib. Zərərçəkən döş qəfəsindən iki bıçaq yarası alıb. "Cinayət Məcəlləsinin 115-ci maddəsi üzrə cinayət işi başlanıb. Cinayətdə əli olan şəxslərin müəyyən edilməsi istiqamətində tədbirlər görülür", - deyə polisdən bildirilib.

Şahidlərin sözlərinə görə, baş verənlər adi münaqişədən çox soyuqqanlı hesablaşmanı xatırladıb: oğlan bardan çıxaraq öz «Mercedes» markalı maşınına əyləşib və bu zaman ona üç nəfər hücum edib. Onlar zərərçəkəni maşından çıxararaq döyməyə başlayıb, sonra isə bıçaqlayıblar.

"Onlar kiminsə bunu görəcəyindən, onları dayandıracağından çəkinmirdilər. Orada hər yerdə kamera var", - deyə hadisə şahidlərindən biri məlumat verib.

"Dumskaya" nəşri yazır ki, öldürülən şəxs uzun müddətdir Ukrayna vətəndaşı olsa da, əslən Azərbaycandandır.

## Rəmişin xanımı oğurlanan qızıllardan danışdı



**Xalq artisti, tanınmış gitara ifaçısı Rəmişin qızılları oğurlanıb. Qızılları oğurlayan isə, dediyinə görə, onun 9 illik dostu olub. Lent.az saytının yaydığı məlumata görə ifaçı bu barədə ATV-də yayımlanan "Bizimləsən" verilişində bildirib:**

"İrana gedəndə qızıllarımızı rayonda yaşayan 9 illik yaxın dostuma verdik. Elə oldu ki, İrana gedəsi olmadım. Qızıllar həmin insanda qaldı. Sonra onu bizə qaytarmadı, dedi oğurlayıblar. İndi polis bölməsinə şikayət ərizəsi vermişik".

"Yeni Müsavat"a açıqlama verən gitara ifaçısının həyat yoldaşı Gülü xanım da oğurluqda yalnız Rəmişin dostundan şübhələndiyini deyib. Onun sözlərinə görə, hadisə Lənkəran rayonunda baş verib: "Ona görə də Lənkəran Rayon Polis Şöbəsinə müraciət etmişik. Hələ ki, yeni bir məlumat yoxdur. Biz qızılları Rəmişin dostuna vermişdik. Qızıllar onun evində itibsə, deməli, özü oğurlayıb".

Gülü xanım oğurlanan qızılların dəyəri barədə məlumat vermək istəmədi: "Bu barədə istəmirik mətbuata bildirək, çünki bu bizim şəxsi işimizdir. Rəmiş lazımi məlumatı ATV-yə açıqlamasında bildirib".

❑ Xalidə GƏRAY

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə atası Müseyib müəllimin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir**

***

**Hikmət və Nazim Sabiroğlu qardaşları "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə atası Müseyib müəllimin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir**


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qə-


# Qənirə Paşayeva Barrozo ilə Qarabağdan danışıb

**Deputat Qənirə Paşayeva Avropa Komissiyasının sabiq sədri Xose Manuel Barrozo ilə Dağlıq Qarabağdan danışıb. "Beynəxalq Turizm Forum"unda iştirak edən deputat forum çərçivəsində Barrozo ilə görüşüb.**



Söhbət zamanı Avropa Komissiyasının sabiq sədri Azərbaycanda vəziyyətlə maraqlanıb və Q.Paşayeva ona Azərbaycanda vəziyyətlə yanaşı, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarındakı son vəziyyət, öz evinə dönə bilməyən 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün barədə də geniş məlumat verib, fikir mübadiləsi aparılıb.

Q.Paşayeva Avropa təşkilatlarının münaqişənin həllindəki ikili standartları və qeyri-obyektivliklərinin narahatverici olduğunu da diqqətə çatdırıb. Bölgədə vəziyyətin Rusiya-Ukrayna müharibəsi, Səudiyyə Ərəbistanı-İran münasibətlərinin gərginləşməsi, Suriya və İraqda yaşanan savaşlar,acı hadisələr nəticəsində köçkün düşən insanların üzləşdiyi problemlərlə daha da gərginləşdiyini deyən Avropa Komissiyasının sabiq sədri münaqişənin həllinin və bütün bölgədə sabitliyin yaranmasının vacib olduğunu diqqətə çatdıraraq Avropa Komissiyasına rəhbərliyi dövründə Azərbaycanla əməkdaşlığın inkişafı istiqamətində ciddi addımlar atıldığını deyib.

Azərbaycan prezidenti İlham Əliyevlə görüşlərinə toxunan Barrozo Azərbaycan Avropa üçün çox mühüm tərəfdaşdır, özəlliklə enerji sahəsində qurulan etibarlı tərəfdaşlıq çox önəmlidir deyib və əməkdaşlığın daha da genişlənməsi üçün böyük potensial olduğunu diqqətə çatdırıb.

Geniş və maraqlı mövzular ətrafında fikir mübadiləsinin sonunda Q.Paşayeva Barrozoya Azərbaycan həqiqətləri ilə bağlı materialları hədiyyə edib.

## İlhamədən gözlənilməz qərar

**Adı son vaxtlar qalmaqallarda hallanan xalq artisti İlhamə Quliyeva gözlənilməz qərar verib. Belə ki, "Şöhrət" ordenli sənətçi mətbuatla olan əlaqəsini dondurmağa qərar verib. İlhamə Quliyeva deyib ki, bir müddət jurnalistlərlə nə görüşəcək, nə də onlara açıqlama verəcək. Görünür, gündəmin əsas mövzusuna çevrilən müğənni bu addımı ilə yaşanan qalmaqallara son qoymaq niyyətindədir.**

Qeyd edək ki, xalq artistinin həbsxanada olan köməkçisi Mehriban Hüseynova mətbuata ünvanladığı məktubunda İlhamə Quliyevaya qarşı bir çox ittihamlar irəli sürüb. Mehribanın məktubundan sonra xalq artistləri Flora Kərimova, Aygün Kazımova və əməkdar artist Elza Seyidcahan da primadonnaya əks cəbhədə yer alıblar. Hətta Elza açıqlamasında Mehriban Hüseynovanın lehinə məhkəmədə şahidlik edəcəyini açıqlayıb.



## Bu gün Bakıda sulu qar yağacaq

**Fevralın 8-də Bakı və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı, gecə və səhər yarımadanın bəzi yerlərində sulu qara keçəcəyi ehtimalı var.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, günün ikinci yarısında havanın dəyişkən buludlu olacağı gözlənilir. Arabir əsən güclü şimal-qərb küləyi günün ikinci yarısında mülayimləşəcək. Temperaturun gecə 0-2, gündüz 2-5 dərəcə isti olacağı gözlənilir.

Rayonlarda havanın yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir, ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir güclənən qərb küləyi əsəcək. Bəzi yerlərdə duman olacaq. Havanın temperaturunun gecə 5-10 dərəcə şaxta, dağlıq ərazilərdə 9-12 dərəcə şaxta, gündüz 2-7 dərəcə şaxta, Mərkəzi Aran rayonlarına gündüz 2-7 dərəcə isti olacağı gözlənilir.



## Ərdoğan siqareti atan şəxslərlə görüşəcək

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində siqareti tərgidən vətəndaşlarla görüşəcək. Musavat.com xarici KİV-lərə istinadən xəbər verir ki, Ərdoğan "9 Fevral Dünya Siqareti Buraxma Günü" ilə əlaqədar özəl görüş keçirəcək.**

Məlumata görə, görüşə siqareti tərgidən 250-dən çox vətəndaş qatılacaq. Özəl görüşün saat 2-də baş tutacağı gözlənilir.

Hər dəfə siqaret çəkən birini görəndə onu siqareti tərgitməsi üçün razı salmağa çalışan Ərdoğanın göstərdiyi bu təşəbbüs nəticəsində siqareti buraxan 20 nəfərin də görüşdə iştirak etməsi gözlənilir.

## Abşeron sakini evinin qarşısında güllələndi

**Abşeron rayonunda silahlı insident olub. Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərindən APA-ya verilən birgə məlumatda qeyd olunur ki, fevralın 2-də saat 12:50 radələrində Abşeron Rayon Polis Şöbəsindən Rayon Prokurorluğuna rayon sakini, 1982-ci il təvəllüdlü Babayev Kamran Valeh oğlunun Saray qəsəbəsində yerləşən evinin qarşısında naməlum şəxs tərəfindən "Makarov" markalı odlu silahdan açılan atəş nəticəsində "boynun və döş qəfəsinin odlu silah yaralanması" xəsarəti ilə Sumqayıt şəhər Təcili Tibbi Yardım xəstəxanasına daxil olması barədə məlumat daxil olub.**

Faktla bağlı həmin tarixdə Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) və 228.1-ci (qanunsuz olaraq odlu silah əldə etmə, saxlama və daşıma) maddələri ilə cinayət işi başlanıb. Polis və prokurorluq əməkdaşlarının həyata keçirdiyi təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində cinayətin Qüdrət Kərimov tərəfindən törədilməsində kifayət qədər əsaslı şübhələr yarandığından o tutularaq istintaqa cəlb olunub və ona Cinayət Məcəlləsinin qeyd olunan maddələri ilə ittiham elan edilməklə barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Kamran Babayev aldığı xəsarətlərdən fevralın 6-da Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasında dünyasını dəyişib.

Hazırda başlanmış cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Kolbasadan zəhərlənən ailənin bir üzvü öldü

**Bir həftə əvvəl Saatlı rayonunda qidadan zəhərlənən şəxs dünyasını dəyişib. APA-nın məlumatına görə, bu gün Saatlı rayonunun Sarıcalar kənd sakini, bir həftə əvvəl kolbasadan zəhərləndiyi bildirilən 59 yaşlı Mədinə Ədim qızı Abbasova vəfat edib.**

Qeyd edək ki, fevralın 1-də Sarıcalar kəndində bir ailənin 3 üzvü - 26 yaşlı Zümrüd Şakir qızı Əsgərova, 5 yaşlı Zəhra Yusif qızı Əsgərzadə və 59 yaşlı Mədinə Ədim qızı Abbasova qidadan zəhərlənmə diaqnozu ilə Saatlı Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Onlara lazımi tibbi yardım göstərilsə də, M. Abbasova fevralın 7-də səhər saatlarında dünyasını dəyişib.

Ailənin kolbasadan zəhərləndiyi bildirilir. O da qeyd olunur ki, dünyasını dəyişən qadın vərəm xəstəsi olub.

## Türkiyədə 6 İŞİD-çi saxlanılıb

**Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı İŞİD terror qruplaşmasının zərərsizləşdirilməsi ilə bağlı məlumat yayıb. Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, Gaziantepdə Suriyadan Türkiyəyə qeyri-qanuni yollarla keçməyə çalışan bir qrup şəxs saxlanılıb.**

Türkiyə Silahlı Qüvvələrinin rəsmi saytında verilən açıqlamaya görə, Gaziantepdə saxlanılan 6 nəfər xarici ölkə vətəndaşıdır. Fevralın 6-da Türkiyəyə keçmək istəyərkən saxlanılan həmin şəxslərin İŞİD terror qruplaşmasının üzvləri olduğu da verilən məlumatlar arasındadır.

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**Müsavat başqanının həbsdəki müavini Tofiq Yaqublunun fevralın 6-da 55 yaşı tamam oldu. Eyni zamanda, vicdan məhbusunun fevralın 4-də həbsindən 3 il ötdü. Ailəsi ilə görüş günü doğum gününə təsadüf etdiyindən başqan müavininin qızı Nigar Yaqublu 13 saylı cəzaçəkmə müəssisəsində onunla görüşüb.**



# Qızı doğum günündə Tofiq Yaqublu ilə görüşdü

## Nigar Yaqublu: "O, hər kəsə öz təşəkkürünü bildirdi..."

Görüş barədə "Yeni Müsavat"a açıqlama verən Nigar xanım atasının səhhətindəki problemlərin getdikcə artdığını bildirdi: "Fevralın 6-da atamın doğum günü idi. Təsadüfən görüş günümüz bu günə təsadüf edirdi. Görüşə mən, atamın xalası və dayısı oğulları getmişdik. Onların atamla görüşlərinə icazə vermədilər. Yalnız mən görüşə bildim. Baxmayaraq ki, atamın ad günü idi, amma bizim üçün sıradan bir görüş oldu. Atama edilən təbrikləri çatdırdım. O, hər kəsə öz təşəkkürünü bildirdi. Növbəti təbrikləri telefon danışığı zamanı çatdıracam. İstərdik ki, bu günü başqa şərtlər daxilində qeyd edək. Atamın səhhətindəki problemlər qalmaqda davam edir. Onun asma xəstəliyi var. O şəraitdə saxlanılması səhhətinə daha ciddi təsir edir".

Vicdan məhbusunun qızı atasının fevralın 25-də Şəkidə keçiriləcək Apelyasiya Məhkəməsi ilə bağlı REAL sədri İlqar Məmmədovla birlikdə Şəkiyə aparılacağını da qeyd etdi: "Qeyri-rəsmi mənbələrdən aldığım məlumata görə, bu ayın 25-də Apelyasiya Məhkəməsi olacaq. Atam və İlqar Məmmədov ərizə ilə müraciət ediblər ki, onların iştirakı olmadan Apelyasiya Məhkəməsi keçirilsin. Amma bildiyim qədəri atamı və İlqar Məmmədovu fevralın 13-23-ü aralığında Şəkiyə göndərəcəklər".

N.Yaqublu 13 saylı cəzaçəkmə müəssisindəki problemlərin qaldığını da söylədi: "13 saylıda vəziyyətin nə yerdə olduğu hər kəsə məlumdur. Hazırda cəzaçəkmə müəssisəsindəki problemlər qalmaqda davam edir. Vəziyyətin dəyişməsi üçün köklü dəyişikliklərə ehtiyac var. Cüzi dəyişikliklər şəraitə heç bir təsir etmir".

Xatırladaq ki, Tofiq Yaqublu İsmayıllı hadisələrinə görə həbs olunub. Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilib. Hazırda başqan müavininin cəza müddətinin bitməsinə 2 il qalır.

❑ **Cavanşir ABBASLI**

# Siyasilərin məhkəmə işlərindən son xəbər

## Yunusların işindən şikayət verilib; İlqar Məmmədov məhkəmədə iştirakdan imtina edir; Rauf Mirqədirovun apelyasiya şikayətinə baxılması yubadılır



Leyla Yunus



Arif Yunus



İlqar Məmmədov



Rauf Mirqədirov

**Ötən ilin noyabr-dekabr aylarında azadlığa buraxılan hüquq müdafiəçisi Leyla Yunus və həyat yoldaşı Arif Yunusun işindən Ali Məhkəməyə müraciət edilib. Hazırda ev dustağı olan Yunusların səhhətləri ağırdır. Onlar ev şəraitində müalicə olunurlar.**

Bu barədə "Yeni Müsavat"a Yunusların vəkili Elçin Sadıqov məlumat verdi: "Ali Məhkəməyə Yunuslarla bağlı müraciət etmişik. Proses günü məlum deyil. Kasasiya şikayətimiz onlar barəsində olan cinayət işi ilə bağlıdır. Hələ ki nə vaxt baxılacağı bilinmir. Hazırda onlar ev şəraitində müalicə alırlar. Onların müalicəsi bu şəkildə mümkün olmur. Kasasiya şikayətimizdə bu barədə göstərmişik ki, sınaq müddətinin 5 il müəyyən edilməsi onları müalicəsiz qoyub. Hər gün həkim müayinəsindən keçirlər. Səhhətləri yaxşı deyil. Bu baxımdan mətbuata çıxa bilmirlər".

"Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirova verilən hökmdən Apelyasiya Məhkəməsinə müraciətdən yarım ay keçməsinə baxmayaraq, hələ də proses günü bəlli deyil. Bu barədə jurnalistin vəkili Fuad Ağayev bunları dedi: "Hələ ki proses günü bəlli deyil. Yubanmasının səbəbi müddətlə bağlıdır. Burada heç bir problem görmürəm".

Vəkil hüquqlarını müdafiə etdiyi digər siyasi məhbus İlqar Məmmədovun bu ayın 25-də Şəki Apelyasiya Məhkəməsində keçiriləcək prosesinə də toxundu: "İlqar Məmmədov ayın 25-də keçiriləcək prosesdə iştirak etmək istəməməsi ilə bağlı ərizə göndərib. Apelyasiya Məhkəməsində iştirak edib-etməmək əslində onun hüququdur. Bundan əvvəl Ali Məhkəmənin qəbul etdiyi qərar Avropa İnsan Haqları Məhkəməsinin, eləcə də, Avropa Şurasının Nazirlər Kabinetinin qəbul etdiyi 3 qərara da zidd idi. Ali Məhkəmə birmənalı olaraq, İlqar Məmmədova eyni ittiham üzrə təqsirləndirilən Tofiq Yaqublu barəsindəki iş üzrə icraata xitam verməli, onlar dərhal azad olunmalı idilər. Amma Ali Məhkəmə bir ilə yaxın verdiyimiz şikayətə baxılmanı ləngitdikdən sonra-halbuki bu məhkəmənin tarixində belə hal heç zaman olmayıb- çox qəribə qərar qəbul etdi. Kasasiya şikayətində qoymadığımız məsələləri önə çəkərək, şikayətimizi qismən təmin etdi. Bu işdə Şəki Apelyasiya Məhkəməsi özünü bir dəfə göstərib. İndi yenidən iş həmin məhkəməyə qaytarılıb. Bu məhkəmədən ədalətli qərar gözləmək sadəlövhlük olardı".

F.Ağayev REAL sədrinin məhkəmədə iştirak etməkdən imtinasının səbəblərini də açıqladı: "Burada müxtəlif səbəblər var. Sadəcə iştirak etmək istəmir. Hüququndan istifadə edir. Bir həbsxanadan digərinə köçürülən zaman məhbusun bir müddət yaxınları və vəkilləri ilə görüşü mümkün olmur. İndiyə qədər dəfələrlə İlqar Məmmədov həbsxanada ona qarşı olan rəftardan şikayətlənib. Penitensiar Xidmət qanunsuz bir qərar tətbiq edir. Vəkil hüquqlarını müdafiə etdiyi şəxslə görüşmək üçün razılıq məktubu almalıdır. Məhbus bir yerdən başqa yerə köçürüldükdə, Penitensiar Xidmət vəkildən görüş üçün razılıq məktubu tələb edir. Bu qanunlara tamamilə ziddir. Nəticədə həbsxanada olan məhbuslarla pis rəftara şərait yaranır".

Ombudsman Aparatının nümayəndələri isə 13 saylı cəzaçəkmə müəssisində Müsavat başqanının müavini Fərəc Kərimli ilə görüşüblər. Bu barədə gənc məhbusun atası Raqif Kərimli məlumat verdi: "Fərəclə telefonla danışdıq. Vəziyyəti yaxşıdır. Ombudsmandan yanına nümayəndələr gediblər. Bəzi problemlərini onların diqqətinə çatdırıb. Müəssisədə olan problemlər həll olunub. Siracın vəziyyəti yaxşıdır. Bizim üçün yeganə problem Fərəc və Siracın ayrı-ayrı cəzaçəkmə müəssisəsində saxlanılmalarıdır. İki yerə getmək hər cəhətdən çətindir".

NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov oğlu ilə görüşündən danışdı: "Müəssisədə Ömərlə görüşdük. Vəziyyəti yaxşı idi. Bir az xəstələnmişdi. O da keçib getdi. Ömər problemlərini deyən insan deyil".

❑ **Cavanşir ABBASLI**

# Kilo ilə "Qarabağ"



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**"Koroğlu" metrostansiyasının yanındakı "İntihar körpüsü"ndə artıq keşik çəkmək lüzumsuz. Ona görə yox ki, intihar edənlərimiz yoxdur, sadəcə, alternativ yerlər kifayət qədərdir. Yaşamaq üçün alternativlər azalanda, təbii ki, intihar üçün alternativlər axtarılacaq: Nəqliyyat Nazirliyinin yanındakı körpü, xəstəxana binası, evin damı, bankın qarşısı, mətbəxdəki çılçıraq, dəniz, həyətdəki tut ağacı...**

Məncə, bu gün hökumətin birinci işi adamları intihar fikrindən daşındırmaq olmalı. Adamları inandırmaq lazımdır ki, heç nə itirilməyib, həyatın sonu deyil. 38 milyard valyuta ehtiyatı olan ölkənin vətəndaşı ümidsiz olmamalıdır. Kimsə deyə bilər ki, o milyardlardan bizə nə? Yox, o vəsaitlə bu ölkədə çox böyük işlər görmək olar. Özü də təkcə ehtiyat pullarla yox, elə daxili resurslarımızla da...

Nümunə qulağımıza dibində. İran 30 ildən çox Amerika ilə müharibə vəziyyətində oldu, illərlə sanksiyalara məruz qaldı, pulu dəyərdən düşdü, 70 milyonluq ölkə kasıbladı, ancaq əhali ən çətin anında belə, çıxış yolunu özünə qəsddə axtarmadı. Hətta bizim minlərlə xəstə çarə üçün İran xəstəxanalarına üz tutdu. İranlılar durdular, dözdülər, sabaha inandılar... Budur, sanksiyalar götürülüb, banklardakı milyardlara "yaşıl işıq" yandırılıb, ölkə neft və qaz bazarına meydan oxuyur.

Azərbaycan hələ ki, sanksiya altında deyil. Bizdə "Əsrin müqaviləsi"ni imzalayanda, beynəlxalq korporasiyalar Bakıya cəmləşəndə İran hələ Amerika ilə savaşdaydı. Tehran hələ indi "Total" şirkəti ilə neft sazişi imzalayır, Londona təyyarə reyslərini bərpa edir...

Üstəlik, İran bütün dünyaya açılım elan edib, ölkəyə yatırım qoyulması uğrunda mübarizə gedir. Almaniya şirkəti burada "Mercedes-Benz E-Class"-ın istehsalına başlayıb və yaxın vaxtlarda yük avtomobillərini də satışa çıxaracaq. "Volkswagen", "Siemens" və digər şirkətlər də qonşu ölkəyə gəlir.

"NAZ-Lifan"ı xatırladım. Prezidentin çıxışından sonra Naxçıvan maşınlarından çox danışılır. Ancaq əgər ölkənin bircə deputatı belə, indiyədək "NAZ-Lifan" almayıbsa, demək, yerli istehsalımızın keyfiyyətinə inam yoxdur. Biz hələ istehsalımıza inam yarada bilməmişiksə, o halda vətəndaşımız İranda istehsal olunan "Mersedes"ə üstünlük verəcək, şübhəniz olmasın. Ona görə də insanları inandırmaq lazımdır, özü də yalnız sözlə yox, keyfiyyətlə...

Üstəlik, söhbət təkcə özümüzünküləri inandırmaqdan getmir. Ölkəmizin inkişafı üçün bu inamı xaricilərdə də aşılamaq lazımdır. Necə ki, Türkiyə, Gürcüstan inandıra bilib və qeyri-neft ölkəsi olsa da, böyük pullar qazanıb: turizmdən. Bizim də təbiətimiz, dağ-dərəmiz, dənizimiz var, turist gəlmirsə, deməli, günah özümüzdədir. İran qapılarını yeni açıb, əcnəbilər ölkəboyu səpələnib...

Bu yaxınlarda oxudum ki, "Azərbaycansayağı səhər yeməyi" barədə əsasnamə hökumətə təqdim olunacaq. Təsəvvür edirsinizmi, hələ olunacaq? İllərdir turizmin niyə inkişaf etməməsi üzərində baş sındırırıq, ancaq məlum olur ki, "axşam düşüb", biz hələ əcnəbi turist milli səhər yeməyimizdən belə xəbərsizik. Hələ indi keçi pendirini menyuya daxil etmək barədə düşünürüksə, bəs, ötən müddətdə nə ilə məşğul olmuşuq? Elə öhdəmizə düşənləri etmədiyimizə görədir ki, erməni bir gün lavaşa yiyə çıxır, o biri gün dolmaya...

Əslində bütün işlər öz axarı ilə getsə, həm mədəniyyətimizi təbliğ edər, həm turizmi inkişaf etdirər, həm vəsait qazanardıq. Bizim bu vəziyyətdən maksimum tez, özü də minimum itkilərlə çıxmağımız lazım. Çünki... pafoslu da çıxsa, bizi Qarabağ gözləyir! Hansısa ölkənin böhranla üzləşməsi elə də ağrı-acı ilə qarşılanmaya bilər. Ancaq ərazisinin beşdə biri işğalda olan Azərbaycanın iraq olsun, iqtisadi bataqlığa düşməsi onun Qarabağa yolunu da illərlə uzada bilər.

Dilqəm Əsgərov, Şahbaz Quliyev günləri sayır ki, bir gün qapılar taybatay açılacaq və onlar Şuşanın azadlığını elə öz azadlıqları ilə birgə görəcəklər. Demək, biz özümüzə gəlməli, toparlanmalı, daxildəki qayğılarımızı azaltmalıyıq. Bizi yenə də Qarabağ birləşdirə bilər. Bəlkə elə həm də Qarabağa qayıdacağımız günə inamımızın da öləziməsindəndir ki, banka borcumuza görə özümüzə od vururuq. Çünki Qarabağı düşünən vətəndaş odu düşmənin başına ələmək üçün saxlayar, öz başına tökməz!

...Rusiyada, Sibirdə "Qarabağ" konfetinin istehsalına başlanılıb. Kilosu 430 rubla, bizim pulla 8 manat 70 qəpiyə. Məsələ çox uzandı və Qarabağ başdan-ayağa alver predmeti oldu. İndi də kilo ilə satacaqlar...

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016

# Rail Rzayevin açılmamış qətlinin 7-ci ilində sükut pozuldu

**Müdafiə nazirinin sabiq müavini, Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHQ HHMQ) keçmiş komandanı, general-leytenant Rail Rzayevin qətlə yetirilməsinin 7-ci ildönümü ərəfəsində onun qızı Rahilə Rzayeva ilə söhbətləşdik.**




# Qətlə yetirilən generalın qızından şok açıqlamalar - sirlər açılır

Rahilə Rzayeva istintaqla bağlı sensasion faktlar açıqladı; Hərbi-Hava Qüvvələrinin eks-komandanın həyat yoldaşı Eldar Mahmudovu niyə məhkəməyə vermək istəyirmiş?; "Atamı vaxtında hospitala çatdırmayıblar", deyən qızı hansı yüksək vəzifəli məmurlardan narazılıq etdi...

Atasının qətlindən 9 gün əvvəl - 2009-cu il fevralın 2-də oğurlanan, sonradan sorağı MTN-dən gələn HHQ HHMQ-nin mayoru Pərviz Zakir oğlu Həmidovun taleyi ilə bağlı başlanan söhbətimiz son dərəcə sensasion sayıla biləcək açıqlamaları ilə davam etdi.

Söhbəti təqdim edirik:

***- Sizcə, Rail Rzayev niyə qətlə yetirildi?***

- Rail Rzayevin qətlinin əsas səbəbi prezidentimizə, xalqımıza, vətənimizə sadiq olması idi. O vaxt türklər Azərbaycana gələndə elə bilirdilər ki, hər şeyi buradakı mütəxəssislərdən yaxşı bilirlər. Amma gəlib Rail Rzayevin gördüyü işləri görəndə ağızları açıq qalmışdı.

Kobud olsa da deyəcəyəm: Rail Rzayev "şestorka"lıq edib rütbə qazananlardan olmayıb. Camaatın yanında etiketi saxlasa da, rütbədə böyük olsa da, həmin şəxsə sözünü üzünə deyərdi. O, belə adam idi. Sovet dövründə onu mərkəzi komitəyə çağırıb nüvə başlıqlı raketlərin olduğu xüsusi hərbi hissəyə komandir təyin etmək istəyirdilər. Çünki o, müsabiqədən keçən yeganə hərbçi olmuşdu. Sovetlər birliyi dağıldı, bu təyinat baş tutmadı. O qədər namizədin arasından azərbaycanlını sırf bilik və bacarığına görə seçmişdilər. O, Rusiyadan 3 il əvvəl Hərbi Hava Qüvvələri ilə Hərbi Hava Donanmasını birləşdirib bir struktur etmişdi. Rail Rzayev Hərbi Hava Qüvvələrini və Hərbi Hava Donanmasını sıfırdan quran şəxs idi. Bu gün evimizdə sakit yatdığımıza görə mərhum prezidentimiz Heydər Əliyevə borcluyuq, ikincisi də Rail Rzayevə. Onun kabinetində olsaydız görərdiz ki, o əsgər "koyka"sında yatan general-leytenant idi. Bu gün bütün nazirlərimiz, rəhbər vəzifədəkilər Rail Rzayev kimi olsaydı... Çovdarovlar, eldar mahmudovlar olmazdı... Atam sırf əsgər idi. O, siyasətə, kiminsə işlərinə qarışmırdı. Başını aşağı salıb əsgərlik edirdi. Dəfələrlə raportla müraciət edirdi ki, səhhəti ilə əlaqədar onu tutduğu vəzifədən azad etsinlər. Amma Heydər Əliyev onu buraxmırdı. Canı xəstə idi. Hamı səhər 7-də rahat maşınlarda işə gedəndə mənim atam səhər 4-də qalxırdı. Kürdəmirdəki təlim mərkəzini yaratmaq üçün gün ərzində neçə dəfə rayona gedib qayıdırdı. Yüksək şəkəri vardı, ürəyində bir neçə dəfə cərrahiyyə əməliyyatı aparılmışdı, ayaqlarında ağrıları vardı. Bununla belə o özünün xəstəliklərini biruzə verməyi xoşlamırdı. Ön cəbhəyə də gedirdi. Oradakı hərbi hissələri şəxsən yoxlayırdı. Eldar Mahmudov vaxtı ilə Rail Rzayevin qətli ilə bağlı belə bir versiya səsləndirmişdi ki, guya anamın qohumları mülk üstündə onu qətlə yetiriblər. Bu çox gülünc versiya idi. O dövrdə anam Eldar Mahmudovu məhkəməyə vermək istəyirdi. Sonradan məsləhət görülmədi. İstintaqda o vaxt məsələ qalxmışdı ki, işdə zərərçəkən kimi mənim anamı tanısınlar. Bunun qarşısını Rüstəm Usubov aldı. Deyirdilər ki, Rail Rzayevin 2-ci həyat yoldaşı həddən artıq ağıllıdır, onu istintaqa buraxmaq olmaz.

***- Sizcə niyə müdafiə nazirinin müavini, Azərbaycanın hava məkanına cavabdeh olan bir komandanın qətli bu günədək açılmır?***

- Görünür hansısa bir məqam, məsələ var ki, onu gözləyirlər. Həmin məqam gələndə qətlin üstü açılacaq. Belə olmasaydı, mən xarici ölkədən çoxdan siyasi sığınacaq istəyərdim. Prezidentimizə inanıram. Gözləyirəm ki, zamanı, vaxtı gələndə o, qətlin sifarişçisini layiqli cəzasına çatdıracaq. Bir də ki, Allaha inanıram. Ən böyük hakim Allahdır.

***- Qətldən sonra bir neçə versiya ortaya çıxdı. Onlardan biri də qətli "daxili düşmənlərin" sifariş etməsi idi. Hətta başqa bir struktura rəhbərlik edən generalın adını da hallandırırdılar. Hansı versiyaya daha çox inanırsiz?***

- Rusiya ilə Türkiyə münasibətləri gərginləşəndə mətbuatda belə bir yazı dərc olunmuşdu ki, vaxtilə İran tərəfi Azərbaycan sərhədini pozanda Türkiyə tərəfi təyyarələri qaldırıb qüvvə nümayiş etdirdi və təyyarələr hava məkanımızdan çıxdı. Əslində isə belə deyildi. Bütün bunlar bizim gözümüzün qabağında olmuşdu. İran təyyarələri bizim sərhədi pozanda onlar türk təyyarələrindən qorxmamışdılar. Onları Rail Rzayev lazımi səviyyədə yerlərində oturtdu, hədlərini bildirdi. Eyni zamanda, ermənilər də Rail Rzayevdən qorxurdu. Fikir verirsinizsə, Rail Rzayevi aradan götürdülər və ermənilər Xankəndində aerodrom tikdilər. Çünki Rail Rzayev mövqeyini açıq deyirdi. Bildirirdi ki, hava məkanını pozan istənilən təyyarə dərhal vurulacaq. Ona görə də mal-mülk söhbəti, daxili düşmənlər versiyası gülüncdür.

Rail Rzayev öləndən sonra Əliağa Hüseynov (keçmiş Respublika Hərbi Komissarı-red) müsahibə verib dedi ki, o, mənim qudam yox, dostum olub. Halbuki Əliağa Hüseynov qətldən əvvəl hər yerdə deyirdi ki, Rail Rzayev mənim qudamdır.

***- Onun Rail Rzayevlə qohumluq əlaqələri yoxdur?***

- Rail Rzayevin birinci ailəsindən olan qızlarından biri onun qardaşının oğlunda ərdədir. Əliağa Hüseynov düz etmir. Vaxtilə sinəsinə vururdu ki, qudamdır. Ziya Məmmədovla qohum olandan sonra, Rail Rzayev qətlə yetiriləndən sonra qudalıq yaddan çıxdı.

***- Dediklərinizdən belə anlaşıldı ki, qətlin xarici qüvvələr tərəfindən sifariş olunduğu versiyasına daha çox üstünlük verirsiz?***

- Versiyalardan heç birinə üstünlük vermirəm. Rail Rzayev siyasi məsələlərə, çirkin işlərə qarışmırdı. O, başını aşağı salıb işini görürdü. Həddini, yerini bilən idi. Onu ancaq xidməti işi ilə bağlı aradan götürə bilərdilər. Görünür, o, kiməsə mane olub.

***- Generalın qətlindən sonra onun sürücüsünü, köməkçisini həbsə aldılar. O, adamların günahı vardı?***

- Əlbəttə var idi. Bu adamlar hər ikisi hərbçilər idi. Qətl törədilən an orada, yanında sürücüsü olub. Hadisədən sonra gedib Aydın Rəfiyevi götürüb. Aydın Rəfiyev yerin altını da, üstünü də bilən adamdır. Sürücü maşına oturur, görmür ki, maşının arxa şüşəsində deşik var? Sonradan Aydın Rəfiyev də maşına minir. Amma bunların heç biri maşının arxa şüşəsindəki deşiyi görmürlər? Ağzından qan axdığını görmürdülər? Bu uşaq nağılına oxşayır. Yalandan da deyirlər ki, elə bildik ki, ürəyi tutub. Onu vaxtında hospitala çatdırmayıblar. İbrahim Tatlısəsin də başına atəş açdılar, amma sağ qaldı. Çünki vaxtında həkimə çatdırmışdılar. Amma bunlar nə ediblər? Qəsdən ora-bura sürüyüblər, vaxt uzadıblar.

***- Qətldən sonra Nəcməddin Sadıkov "Röyters"ə müsahibəsində demişdi ki, Rail Rzayevin 1 həftə əvvəldən izləndiyini bilirdik. İzlənməsi ilə bağlı nə deyə bilərsiz?***

- Rail Rzayev izlənirdisə, bu barədə rəhbərliyi, xüsusi xidmət orqanlarını məlumatlandırmışdı. Niyə onlar tədbir görməyiblər, hərəkətə keçməyiblər? MTN-ə, öz nazirinə müraciət etmişdisə, bunlar hara baxırdılar?

***- İstintaq zərərçəkən qismində kimi tanıyıb?***

- Birinci ailəsindən olan oğlunu.

***- Sizi istintaqın gedişatı ilə bağlı məlumatlandırırdılar?***

- Xeyr, bizi heç yaxına buraxmırdılar. Rüstəm Usubovun nə marağı vardısa, məhkəmələrə zəng edib təzyiq göstərərdi ki, məni zərərçəkən kimi tanımasınlar. Hakimlər də bizdən üzr istəyirdilər ki, sizi zərərçəkən kimi tanımayıblar. Ona görə də vaxtımı-zamanımı gözləyirəm. Allah özü hamıya hakim olsun, Rüstəm Usubova da, cinayəti sifariş edənə də. Atam hamının rahat, qorxusuz yaşaması üçün əlindən gələni edib. Amma məni atasız qoydular və bu gün prokurorluq heç nə etmir, heç veclərinə də deyil. O adamlardan fərqli olaraq atam vəzifəsindən yapışıb dayanan adam deyildi.

***- Rail Rzayevin oğlu nə işlə məşğuldur?***

- Onun fiziki problemləri var. Mən bu barədə danışmaq istəmirəm.

***- O istintaqda fikrini sərbəst şəkildə ifadə etmək iqtidarındadır?***

- Məncə... bu haqda nəsə demək istəmirəm. Atam o vaxt deyirdi ki, o, hüquqşünasdır.

***- Rail Rzayev qətlə yetirildiyi gün səhər işə gedəndə hər hansı bir qeyri-adilik hiss etmişdiz?***

- O, həmin gün birinci ailəsinin evindən çıxıb getmişdi.

***- Həmin binanın mühafizəçisini də qətldən sonra həbs etmişdilər. Sizcə onun günahı vardı?***

- Onun nədənsə xəbəri olmaya bilərdi, amma adyutantı ilə sürücüsünün günahları var. Təsəvvür edin ki, maşına oturursuz, maşını arxa şüşəsində, bir də çarxda deşik var. Hərbçi olan adam o dəqiqə bilər ki, bu nə məsələdir.

***- Bu hərəkətlərin düşünülmüş hərəkətlər olduğuna işarə edirsiz?***

- Aydın Rəfiyev dünyanın altını da, üstünü də bilən adamdır. Adama pislik edəndə, onun yaxını ilə əlbir olub pislik edirlər.

***- Ailənizə təzyiqlər olub?***

- Belə hal olmayıb. Amma qətldən sonra baş verənlərə anam öz etirazını bildirmişdi. Anam o vaxt Eldar Mahmudovu məhkəməyə vermək istəyirdi.

***- Qətlin 1-ci ailə ilə 2-ci ailənin mülk üstə mübahisəsi zəminində törədilməsi versiyasını səsləndirdiyinə görə məhkəmə vermək istəyirdi?***

- Bəli. Həmin vaxt anam deyirdi ki, mənim Eldar Mahmudova yazığım gəlir. Deməli, onun həyat yoldaşı mülk üstündə onu öldürtdürə bilər. Eldar Mahmudov yerində olan kadr deyildi. Yoxlanılmamış bir versiyanı sadəcə nəsə deməyin xətrinə ortaya atırdı. Əsl çekist, kəşfiyyatçı elə bir gülünc versiyanı dilinə gətirməzdi.

***- Rail Rzayevin özünə qəbir yeri alması haqda da məlumat vardı. Onun tez-tələsik dəfni də bunu deməyə əsas verirdi.***

- O, özünə qəbir yeri ala bilərdi. Çünki bütün işlərini əvvəlcədən planlaşdırırdı. Hər bir xırdalığı nəzərə alan, düşünən adam idi. Bir məqamı da deyim. Atamın qətlindən sonra deyirdilər ki, 200 min avro ona hardan idi? Rail Rzayevin ana tərəfi Novxanıdan, ata tərəfi Ərəbistandan Neftçalaya köç etmiş tacirlər olub. Yəni imkansız olmayıblar. İndi neftin qiyməti aşağı düşüb, 200 min avro böyük pul kimi görünür. Rail Rzayev qətlə yetiriləndə 200 min avro elə də böyük pul deyildi. Birinin şəhərin mərkəzində evini sökürlərsə, adama 500-600 min manat pul verirdilər. Rail Rzayev o vaxt Novxanıdan olan babasının mülklərinin siyahısını arxivdən qaldırdı. Şəhərin mərkəzində babasına aid mülklərin sənədlərini qaldırmışdı.

***- Qətldən sonra belə xəbərlər vardı ki, həmin məbləği ailəyə qaytarmayıblar...***

(Ardı səh. 6-da)

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı səfərinə 10 gün qaldı. Rəsmi məlumata görə, səfər çərçivəsində iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısı keçiriləcək. Digər detallar haqda bilgi verilməsə də, analitiklərə görə, Ərdoğan həmkarı İlham Əliyevlə görüşdə Azərbaycan qazı və TANAP-ın inşasının sürətləndirilməsi, həmçinin, Rusiya qazından asılılığın tədricən azaldılması yollarını da müzakirə edəcək.**

# Azərbaycan, Rusiya və İran qazı ətrafında rəqabət sərtləşir - "böyük oyun" başlayıb

## Kaladzenin qəfil Bakı ziyarətinin və Gürcüstan prezidentinin "Qazprom" xəbərdarlığının əsl mahiyyəti; Ərdoğanın Bakı səfərində də qaz mərkəzi mövzulardan olacaq; Ermənistan isə sanksiyalardan qurtulmuş İranın təbii qazı ilə Kremli şantaj etməyə çalışır...




Xatırladaq ki, baş nazir Əhməd Davudoğlunun ötən ilin sonunda - Rusiya təyyarəsi ilə bağlı insidentdən az sonra Bakıya etdiyi ziyarətində də bu məsələlər önə çəkilmişdi. O zaman prezident İlham Əliyev qardaş ölkəyə dəstək olaraq, "Türkiyə harada, biz də orada, biz həmişə bütün məsələlərdə bir-birimizi dəstəkləyəcəyik", bəyanatını səsləndirərək, rəsmi Ankara ilə həmrəylik nümayiş etdirmişdi...

***

Maraqlıdır ki, az sonra Azərbaycan prezidentinin özünün Gürcüstan səfəri planlaşdırılır. Təhlilçilər bu səfərdə də strateji hədəflər qismində Cənub Qaz Dəhlizinin mühüm hissəsi kimi TANAP-ın inşasının sürətləndirilməsi, habelə Gürcüstanın qaza artan tələbatının ödənməsinin yolları ətrafında məsələlərin olacağını güman edirlər. Böyük ehtimalla, ötən həftə Gürcüstan baş nazirinin müavini, energetika naziri Kaxa Kaladzenin qəfil Bakı səfəri də öncəliklə elə sadalanan məsələlərə həsr olunub. Bunu Kaladzenin son açıqlaması bir daha təsdiqləyir.

"Hazırda danışıqlar çox aktiv fazadadır. Lakin hələlik anlaşma əldə edilməyib. Danışıqlar müsbət nəticələnərsə, o zaman Gürcüstana Rusiyadan əlavə mavi yanacaq lazım olmayacaq. Söhbət 300-400 milyon kubmetr qazdan gedir", - deyə gürcü nazir Bakı görüşünün detallarından danışarkən vurğulayıb və faktiki surətdə, Rusiya qazı məsələsinin tədricən arxa plana keçdiyinə işarə vurub.

Diqqətçəkici daha bir detal odur ki, Kaladze Bakıda ikən Gürcüstan prezidenti Georgi Marqvelaşvili "Qazprom"la təbii qazla bağlı danışıqlar aparan hökumətə xəbərdarlıq edib. "Gürcüstan hökumətinin Rusiyanın "Qazprom" şirkəti ilə apardığı danışıqların bir çərçivəsi olmalıdır və bu çərçivədən kənara çıxmaq olmaz", - deyə prezident söyləyib.

Sitat: "Qazprom" mövzusu yalnız iqtisadiyyat və energetika ilə məhdudlaşmır. Burada təhlükəsizlik, xarici siyasət, geosiyasət kimi məsələlər də var. Məhz buna görə ali hakimiyyət orqanları "Qazprom"la aparılan danışıqlarda vahid bir çərçivə cızmalı və bu çərçivədən kənara çıxmamalıdır".

***

Bir daha yada salaq ki, Gürcüstanın əsas qaz təchizatçısı Azərbaycandır. Bundan əlavə, Gürcüstanda istehlak olunan qazın 12%-ni Rusiya nəql edir. Bu - Gürcüstan üzərindən Rusiyadan Ermənistana nəql olunan mavi yanacağa görə tranzit haqqı kimi alınan qazdır.

Tiflis hökuməti Rusiya tərəfinin nəql etdiyi təbii qazın həcmini artırmaq üçün neçə vaxtdır "Qazprom"la da danışıqlar aparırdı. Gürcüstan müxalifəti və toplumu isə buna qarşıdır. Müxalifətə görə, bu, Gürcüstanın enerji təhlükəsizliyinə təhdiddir. Bu yerdə xatırladaq ki, 2007-ci ilin qışında Gürcüstan Rusiyadan güclü qaz asılılığında olarkən Moskva qazın nəqlini dayandıraraq, ölkəni təhdid eləmişdi. O zaman köməyə məhz Azərbaycan gəlmişdi.

Bəzi iddialara görə, rəsmi Tiflisin "Qazprom"la aylardır davam edən müəmmalı qaz danışıqlarının arxasında Rusiya qazının həcmini artırmaqdan daha çox, elə Azərbaycan qazının qiymətinin aşağı salınmasına nail olmaq istəyi dayanır. Yəni bir növ incə şantaj məsələsi. Hər halda zaman bu məsələyə də aydınlıq gətirəcək...

***

Qaz məsələsi işğalçı Ermənistanla Rusiya arasında da zaman-zaman çəkişmə mövzusu olub. Məlumatlara görə, İrəvan təzəlikcə Rusiyanı beynəlxalq sanksiyalardan qurtulan və əl-qolu xeyli açılan digər müttəfiqi - İranla şantaj etməyə başlayıb. Belə ki, Ermənistan baş naziri Ovik Abramyan yeni "geosiyasi situasiya"ya işarə edərək deyib ki, onun ölkəsi əhalinin və biznesin üzərindən yükü azaltmaq üçün təbii qazın qiymətini aşağı salmağa Rusiyanı inandıracağına ümid edir.

"Hesab edirəm ki, beynəlxalq iqtisadiyyatdakı mövcud situasiyadan və geosiyasi proseslərin inkişafından irəli gələrək təkcə qazın ucuzlaşdırılması zərurəti yaranmır, eyni zamanda, bunun üçün imkan da meydana çıxır" - baş nazir deyib. Bununla belə, Abramyan Rusiyanın qazı nə qədər ucuzlaşdırmalı olduğunu söyləməyib.

Xatırladaq ki, az öncə ermənni iş adamları baş nazirə müraciət edərək Rusiyaya qazın qiymətini aşağı salmaq üçün müraciət etməyə çağırıblar. Onlar həmçinin "Qazprom"la hesablaşmanın milli valyuta ilə - dramla aparılmasını istəyirlər. Məlumat üçün onu da bildirək ki, hazırda "Qazprom" Ermənistana qazın min kubmetrini 165 dollara satır.

Rusiya şirkəti Gürcüstanla Ermənistana qaz tranzitinin artırılmasına, habelə deyildiyi kimi, Tiflisin özünə qaz satışına dair danışıqlar aparmaqdadır. Analitiklərə görə, qaz həcmini artırmaq Rusiya şirkətinin özünə lazımdır. Çünki Ermənistandakı Razdan İstilik Elektrik Stansiyası (İES) qazla işləyir və bu İES Rusiyanın mülkiyyətindədir.

Göründüyü kimi, Ermənistan baş naziri bu dəfə Rusiyanı "geosiyasi vəziyyətin dəyişməsi" motivi ilə güzəştə razı salmağa çalışır. Geosiyasi vəziyyətin dəyişməsi dedikdə isə, əlbəttə ki, İrana qarşı sanksiyaların ləğvinə işarə edilir. Bəllidir ki, beynəlxalq sanksiyaların götürülməsindən sonra Tehran Gürcüstanla qaz nəqlinə dair danışıqlara başlayıb, həmçinin, Ermənistan üzərindən üçüncü ölkələrə qaz ötürülməsi ideyası var.

Qısası, Ermənistan baş naziri bununla eyham vurur ki, Rusiya qiyməti aşağı salmasa, onun ölkəsi İrandan qaz təchizatını artırmaq barədə fikirləşə bilər. Lakin bunun mümkünlüyü sual doğurur. Çünki İrandan Ermənistana qaz nəql edən yeganə kəmər "Qazprom-Armeniya" şirkətinin mülkiyyətindədir...

***

Beləcə, qaz amili İran üzərindən sanksiyaların qaldırılması və kəskinləşən Ankara-Moskva münasibətləri fonunda bölgədə sırf iqtisadi, energetik faktor olmaqdan çıxaraq, sürətlə aparıcı geosiyasi amilə çevrilməkdədir - istər qardaş Türkiyə və Bakı-Ankara, Ankara-Moskva münasibətləri üçün olsun, istər Gürcüstan üçün və Tiflis-Moskva, Tiflis-Bakı münasibətləri üçün, istərsə də işğalçı Ermənistan və İrəvan-Kreml münasibətləri üçün.

Proseslərin kulminasiya nöqtəsi isə yəqin ki, qabaqdadır. İstisna deyil ki, tezliklə Kremlin qaz ölkələrinə qarşı yeni şantajlarının və hiyləgər sövdələşmə təkliflərinin şahidi olacağıq. Bir şey dəqiqdir ki, qaz faktoru və yeni qaz layihələri Güney Qafqazın geosiyasi şəkillənməsi və təzədən "format" edilməsində həlledici sözünü hələ deməyib.

Bu faktordan ən çox o dövlət(lər) maksimum qazanc götürəcək ki, daha çevik və daha ağıllı siyasət yürüdə biləcək. Təbii ki, Qərb amilini də hesaba almaqla.

❑ **Analitik xidmət**

# Nə qədər ki, zülm var...



**Xalid KAZIMLI**

**Xəbər başlıqlarına baxın: "Türkiyə: Suriya sərhədində toplaşan qaçqınların sayı 35 minə çatıb"; "Avropa İttifaqı Ankaraya: Qaçqınlara yardım etməlisiniz"; "Daha bir ölkə miqrant axınına qarşı ayağa qalxdı"; "Miqrant axını Almaniyanı dəyişəcək"; "Avropada miqrant böhranı dərinləşir" və sair və ilaxır.**

Anlaşılan odur ki, insanlar müharibə gedən yerlərdən, zülm, kasıbçılıq, hüquqsuzluq hökm sürən ölkələrdən qaçır. Hamı üzünü Avropaya tutub. Amerika uzaqdır, üstəlik, qapısı qaçqınlara bağlıdır. Kanadanın qaçqınlara açılan qapısı arxadan cəftələnməsə də, şərqli miqrantların əlinin çatası məsafədə deyil.

Qaçqınlar dünyanın ən firavan ölkəsi Yaponiyaya, yarısəfalət içində olan Braziliya, Argentina kimi ölkələrə getmirlər, Avropanın ən yüksək rifahlı ölkələrinə üz tuturlar. Hələlik onların üzlərinə xoş baxan Almaniya və İsveçdir. Ancaq onların da yerli xalqının üzü dönməkdədir, çünki yerləri daralır, problemləri artır.

Heç kəs dədə-babasının min bir əziyyətlə qurub yaratdığı, cənnətə çevirdiyi bağçada gəlmələrin çadır qurub yaşamasını, üstəlik, səs-küy salıb onun rahatlığını pozmasını istəmir - məsələ bu qədər bəsit. Miqrantlar isə gəldikcə gəlir. Arxadan onları labüd ölüm, zorlanma, səfalət, aclıq təqib edir. Bu binəsib insanların başqa variantı yoxdur. Sağ qalmaq instinkti onları təhlükəsiz yerlərə sığınmağa vadar edir.

Ancaq dünyada təhlükəsiz yerlər yalnız okeandakı adalar kimi adda-buddadır. Məlum, dünyanın 7 milyardlıq əhalisinin 4 milyardı Avropaya yerləşə bilməz. Avropa əslində balaca bir yerdir, Rusiyanın ərazisinin beşdə biri qədər ola, olmaya. Avropa heç təkcə bu qitədə yaşamağı arzu edən çinliləri tutmaz.

Beləliklə, dünya, əsasən də Avropa qlobal iqtisadi böhranla yanaşı, ondan da qlobal miqrant böhranı ilə üz-üzədir.

Dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların liderləri vaxtaşırı görüşür, sammitlər keçirir, bu böhranı həll etməyə çalışırlar, amma gücləri çatmır.

Bəzən hesab edirlər ki, iri dövlətlər Avropaya axmaqda olan miqrantları aşağı-yuxarı bərabər sayda öz aralarında bölüb yerləşdirsinlər. Ancaq bu ideya populyarlıq qazanmır. Bəzi dövlətlər böyük məbləğdə pullarından keçməyə hazırdırlar - təki miqrant qəbul etməsinlər. Çünki miqrant kütləsi istənilən ölkənin daxili həyatı üçün təhlükədir: kriminogen durum ağırlaşır, mədəniyyət fərqi, düşüncə tərzi problemlər yaradır, "gəlmə-yerli" münaqişəsi yaranır və s. (Burda-bura ağdamlı qaçqınlarla 15-20 kilometr bu tərəfdəki Qarabağ rayonlarının - Tərtər və Bərdənin yerli camaatının arasında düşən münaqişələri xatırlayaq).

Ona görə də Avropa İttifaqı Türkiyə və İtaliya kimi miqrant axınının mənsəbində olan ölkələrə böyük yardımlar edir ki, onlar bu axının qarşısında rezervuar olsunlar.

Heç bu da ümumdünya qaçqın hərəkatını səngitməyəcək. Nə qədər ki, rəhbərlik etdikləri ölkələri feodal-monarxiya üsul-idarəsi ilə idarə edən, bəzənsə quldarlıq quruluşu tətbiq etmək istəyən zalım, tamahkar despotlar var, heç bir sabitlikdən söhbət gedə bilməz. Çünki despotların hərəkətləri bir gün öz ölkələrində milli, dini, sinfi zəmində qarşıdurmaya səbəb olacaq, müharibə başlayacaq və qaçqınlar ordusu yaranacaq.

On illərdir ki, belədir. Sabitlik adası kimi görünən istənilən istibdad yuvasının diktatura rejimi bir azca zəifləyən kimi milyonlarla insan iztiraba, mərhumiyyətlərə düçar olur, qırğına məruz qalır.

Çıxış yolu diktaturalarda və avtoritar rejimli dövlətlərdə demokratiyanın bərqərarıdır. Bunu isə xalq özü istəməlidir və özü həyata keçirməlidir. Fəqət uzun illərin təcrübəsi göstərir ki, beynəlxalq birliyin dəstəyi, qarantiyası, nəzarəti olmayınca heç bir ölkədə "ayağa qalxmış xalq kütlələri"nin demokratik rejim qurması mümkün olmur, əsasən bir despotu digəri əvəz edir.

***

Dünən sosial şəbəkədə bir gənc öz müşahidəsini yazmışdı. O, ASAN xidmətdə olarkən görüb ki, bir valideyn azyaşlı oğluyla bərabər xidmətə gəlib və Almaniya vətəndaşı olan oğlunun Azərbaycan vətəndaşlığına necə keçə bilməsini soruşur. Həmin gənc bu epizoda mat qaldığını yazırdı, çünki milyonlarla insanın Almaniya vətəndaşı olmaq istədiyi bir vaxtda həmin valideynin bu hərəkəti ona qəribə gəlir.

Biz vətəndaş müharibəsi yaşamayan, aclıq, səfalət görməyən ölkə olduğumuz halda, bizdə də miqrant olub Avropaya sığınmaq istəyən minlərlə insan varsa, deməli, nələrsə qaydasında deyil.

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016

# Qətlə yetirilən generalın qızından şok açıqlamalar - sirlər açılır...

(Əvvəli səh 4-də)



***- Qətldən sonra belə xəbərlər vardı ki, həmin məbləği ailəyə qaytarmayıblar...***

- Bəli, həmin 200 min avronu ailəyə qaytarmırlar. Qanunla həmin pul vərəsələr arasında bölünməlidir. Pulu Aydın Rəfiyevdən prokurorluq alıb. Oradan-buradan sənədlər də yığıblar ki, guya Rail Rzayevin borcu varmış, guya pullar həmin borclara veriləcək. Bu gülünc söhbətdir. Atam gedib "Nasosnı"da borcu olan adamların borclarını bağlatdırırdı. Öldürüləcəyini bilən, özünə qəbir qazdıran adam borcları olsaydı verməzdimi? O, borc alan adam deyildi. Bir şikəstin, bir atası qətlə yetirilən qızın pulunu yemək kimə lazımdır? Yetimin payını yeməzlər! Mən xaricdə təhsil almaq istəsəm, həmin pulu ödəyib təhsil ala bilərəm. Bu pulu götürüb ailəyə qaytarmayanlar elə bilirlər qazanc əldə ediblər? Bizim atamız pulu kişi kimi qazanıb. Biz heç kimin yanında gözükölgəli deyilik.

***- Səfər Əbiyev Rail Rzayevin dəfnində iştirak etmədi. Bu nə ilə əlaqədardı?***

- Sonradan yasa gəlmişdi.

***- Münasibətləri necə idi?***

- Xidməti münasibətlər idi.

***- Rail Rzayevin qətlindən sonra belə məlumat vardı ki, istintaqçılar kabinetinə baxış keçirəndə İsrailə təyyarə bileti aşkar ediblər.***

- O tamam başqa söhbətdir. Rail Rzayev heç yerə qaçan adam deyildi. Səhhətində problemləri vardı, bunla bağlı gedə bilərdi. Atam dəfələrlə raport vermişdi ki, vəzifədən getsin. Ayaqları bərk ağrıyırdı. Şəkəri də yüksək idi.

***- Ananız qətllə bağlı müraciətlər edir?***

- Eldar Mahmudov həmin versiyanı deyəndən sonra anam güc nazirlərindən birinin yanına getdi. Dedi ki, versiyanız varsa qoyun ortaya. Yoxdursa, onun versiyaları olan məqaləni ləğv edin. Jurnalist deyilən versiyanı yazır, amma həmin versiyanın arxasında bizim həyatımızın olduğu nəzərə alınmır. Qətldən sonra elə qüvvələr ortaya çıxdı ki, 1-ci ailəsi ilə 2-ci ailəsinin arasını yalanları ilə qatıb-qarışdırmaq istədilər. O qədər primitiv söhbətlər ortaya atırlar ki... Mal-mülk...

Amma həyat göstərdi ki, anam çox müdrik, gözütox qadındır. Anama dəfələrlə deyiblər, o da deyib ki, mən heç kəslə mal-mülk davası etməyəcəyəm. Nə verilir verilir, verilmirsə, verilmir.

***- Araya girən kimlər idi?***

- Atamın bir işçisi vardı, Hacı Davud. Məkkəyə də gedib gəlib. Amma həddən ziyadə aşağı hərəkətlər edən bir şəxsdir. Bu adamın nə marağı vardı ki, iki ailənin arasına girib ailələri toqquşdururdu?

***- Nə baş vermişdi?***

- Anamın adından gedib 1-ci ailəsinə yalan məlumat vermişdi. Amma sonradan məsələnin üstü açıldı, hər şey öz yerini aldı. Onu o vaxt MTN-dən buraxdılar. Amma çox nahaq yerə.

***- Eldar Mahmudovun əsası olmayan versiyaları səsləndirməkdə marağı nə olub?***

- Bunu onun özü bilir. Sualınıza o cavab verə bilər.

***- Sizin fikiriniz maraqlı olardı.***

- Sadəcə Rail Rzayevin sifarişli qətlinin üstünün açılması maraqlarında olmayıb. Niyə maraqlarında olmayıb, bunu da onların özlərindən soruşmaq lazımdır.

***- Aparılan istintaqla bağlı nə deyə bilərsiz?***

- Düşünürəm ki, nəsə bir iş var ki, istintaq belədir. Bildiyimə görə prezidentimiz iki dünya bir olsaydı belə qətlin sifarişçisini cəzalandırardı. Çünki prezident də bilirdi ki, Rail Rzayev çox etibarlı tək-tük adamlardan biridir.

***- Bəlkə atanız haqda gedib doğru-dürüst olmayan məlumatları çatdırıblar?***

- Bizim prezidentimiz çox müdrikdir. Əgər Rail Rzayev Eldar Mahmudov və bu gün vəzifədə olanlar kimi olasaydı, o vaxt Heydər Əliyevin təyyarəsi vurulardı. Yəni Rail Rzayevin fəaliyyəti göz qabağında idi. Ona qara yaxmaqla deyildi. Onun Azərbaycan üçün etdiklərinin cüzi hissəsini haqqında mənfi plandan danışanlar etməyiblər.

***- Fevralın 11-də qətlin 7-ci ili tamam olur. Sizcə bu müddət ərzində bütün məsələlərin aydınlaşması üçün kifayət deyil?***

- Baxın, Eldar Mahmudovun iç üzü neçə il sonra açıldı? 10 il çəkdi. Hər şeyin öz vaxtı var. Bir daha deyirəm ki, mən prezidentimizə inanıram. Deməli, hansısa bir məqam var ki, qətlin üstü açılmır. Belə bir deyim var ki, "şəri kökündən kəsmək lazımdır". Ona görə də prezidentimiz belə bir məqamı gözləyir. Gec-tez o adamlar etdiklərinə görə cəzalarını alacaqlar.

❑ E.MƏMMƏDƏLİYEV

# "Müxalifətin özünə antiböhran proqramı lazımdır"

**Manatın devalvasiyasından sonra ölkədə yaranan çətin iqtisadi vəziyyətlə bağlı müxalifət nümayəndələri, müstəqil ekspertlər hökumətə antiböhran proqramları, təklifləri verdilər.**

## Zahid Oruc: "Müxalifətin şəraiti həddindən artıq tündləşdirməsi, bunu böhran kimi dəyərləndirməsi siyasi maraqla əlaqəlidir..."




Hökumət bu təklifləri dəyərləndirirmi?

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan deputat Zahid Oruc bildirib ki, ilk növbədə mövcud iqtisadi və sosial vəziyyəti düzgün xarakterizə etmək lazımdır: "Böhran sözü əslində hökumətin öz büdcə öhdəliklərini yerinə yetirmədiyi hallar üçün ifadə olunur. Yəni konkret olaraq əmək haqları, təqaüdlər verilə bilmir, ən minimum səviyyədə investisiya proqramları reallaşdırılmır, ölkənin xarici borcları qat-qat artır. Hazırda etiraf etmək lazımdır ki, devalvasiyanın nəticəsi olaraq bir sıra iqtisadi göstəricilər aşağı düşsə də, yuxarıda qeyd etdiyimiz başqa elementlər mövcud deyil. Bu baxımdan hazırkı prosesi iqtisadi, maliyyə qeyri-sabitliyi kimi xarakterizə etməliyik. Müxalifətin şəraiti həddindən artıq tündləşdirməsi, bunu böhran kimi dəyərləndirməsi siyasi maraqla əlaqəlidir. Azərbaycan dövləti özünün valyuta ehtiyatlarını hər hansı digər sahələrə yönəltmək kursunu seçərsə, əvvəlki vəziyyətlə xüsusi bir fərq özünü göstərməz. Gördüyünüz kimi dövlət, "təhlükəsizlik yastığı" kimi xarakterizə olunan vəsaitləri hazırkı məqam üçün xərcləməyi düşünmür. Deməli, alternativ planlar da cızılmaqdadır. Müxtəlif ekspertlərin, təhlilçilərin hər birinin fikirlərinə hörmətlə yanaşıram. Lakin müxalifətin siyasi hissəsi, elə bu kimi anti-böhran tədbirini özləri üçün hazırlasalar çox yaxşı olardı. Heç kim də bu fikrimdən inciməsin. Onların müasir dövrün siyasi cərəyanlarından geri düşdüyünü iddia etmək istəmirik. Media məkanını izləyirlər, dünya hadisələrinə maraq göstərirlər. Ancaq müxalifətin özü, canlı bir orqanizm kimi funksionallığını itirib".

Z. Oruc qeyd edib ki, müxalifət siyasi mənada qat-qat artıq "devalvasiyaya" uğrayıb: "Onların arasındakı münasibətlər də heç kimə sirr deyil. Zaman etibarı ilə müxtəlif aralıq mərhələlərində bunu gizlədə bilirdilərsə, indi o da yoxdur. Belə olan təqdirdə müxalifəti vəziyyətdən çıxarmaq üçün yaxşı bir anti-böhran planı hazırlamağa ehtiyac var. Bununla bərabər irəli sürülmüş müsbət ideyalardan haradasa istifadə etmək mümkün olardı. Ancaq səthi olaraq gördüm ki, onlar yalnız parlament və prezident seçkilərinin yenidən keçirilməsin və digər bu kimi halları tələb edirlər. Halbuki, kimsə desə ki, misal üçün, kənd təsərrüfatına olan vəsaitlər filan qədər artırılsa, bank sektorunun inkişafı üçün filan işlər görülsə və sairə, bunu sırf iqtisadi xarakterə yazmaq olardı. Düşünmək olardı ki, söhbət ölkənin hazırkı vəziyyətinə yanmaqdan və fərqli yolu görməkdən irəli gəlir. Bu baxımdan müxalif qüvvələrin hazırkı mövqeyi cəmiyyətdə aparıcılıq təşkil etmir. Azərbaycan insanı onların ideyaları ilə yaşamır. Çünki bu fikirlər real həyata bağlı deyil. Eyni zamanda onların siyasi avtoriteti, nüfuzu, cəmiyyətdəki yeri çox fərqlidir və heç müsbət də deyil".

Məsələ ilə bağlı ekspert Mehman Əliyev isə hesab edir ki, hökumətin müxalifət cəbhəsinin təkliflərini qəbul etməməsinin səbəbi başqadır: "Ortada köklü bir problem var. Əsas iqtisadiyyatın azadlığından söhbət gedir. Yəni azad iqtisadiyyat, ədalətli rəqabət, inhisarçılığın və korrupsiyanın götürülməsi lazımdır. Bütün bu məsələlər isə birbaşa hakimiyyətə aiddir. Hakimiyyətdə olan adamlar öz şəxsi maraqları üçün bunlardan istifadə edirlər. Başa düşürlər ki, böhrandır və nə isə etmək lazımdır. Ancaq bütün sistem sadaladığım problemlərin üzərində qurulub. Bünövrəni birdən-birə dəyişmək isə onlar üçün böyük problemdir. Müxtəlif fərman, güzəştlər olsa da hakimiyyət köklü dəyişikliyə getməyə hazır deyil".

❑ Əli RAİS

# İşsizliyə görə müavinət: real artım, yoxsa?

## Ekspertlərə görə, hökumət siyasi statistikanı korlamamaq üçün qeydiyyatı dürüst aparmayacaq...

**Bir müddət əvvəl ölkədə işsizliyə görə müavinətin artırılacağı barədə yayılan xəbərlər marağa səbəb olub. Müavinətin məbləğinin 77 manat olacağı bildirilir. Verilən məlumata görə, Nazirlər Kabinetinin edəcəyi dəyişikliklə işsizliyə görə müavinətin məbləği artırılacaq.**



Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, bütün işləyən insanlar öz əmək müqavilələrini qeydiyyatdan keçirməli və sosial sığorta haqları ödəməlidirlər: "Bu hallar varsa, həmin insanlar, demək olar ki, öz iş yerlərini itirməkdən sığortalanıblar. Dövlətin "Məcburi sosial sığorta haqqında" Qanunu var. Bu qanuna görə, işsiz olma sosial sığorta hallarından biri sayılır. Düzdür, bu gün Azərbaycanda işsiz olmaq üçün ayrıca sosial sığorta tarifi yoxdur. Buna baxmayaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin büdcə vəsaitləri içərisində bu məqsəd üçün vəsait nəzərdə tutulub. Nazirliyin yanında Dövlət Məşğulluq Xidmətinin bütün rayonlarda mərkəzləri var. Əgər bütün işsiz olanların əmək müqavilələri qeydiyyatdan keçib və məcburi sosial sığorta haqları ödənilibsə, onlar son 12 ayda əldə etdikləri orta aylıq əmək haqqının 70 faizi qədər 6 ay ərzində işsizlik müavinəti almaq hüququna malikdir".

Nazir qeyd edib ki, 2015-ci ildə işsizlik müavinətinin orta aylıq məbləği təqribən 252 manat təşkil edib: "Bu məbləğ niyə aşağı görünür? Çünki xeyli insan var ki, onların əvvəlki 12 ay ərzində əmək haqqı olmayıb. Bu zaman onlara minimum məbləğdə işsizlik müavinət verilib. Bu gün bu, 55 manatla ölçülür. Cənab prezidentin işsizliklə bağlı müavinətin artırılması ilə bağlı tapşırığı var. Bu günlərdə Nazirlər Kabineti dəyişiklik edəcək. Məndə olan məlumata görə, bu məbləğ 30-40 faiz artırıla bilər (71-77 manat ola bilər)".

Ekspert Natiq Cəfərli isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, bu informasiya heç də bütün işsizlərin kütləvi şəkildə müavinət alacağı anlamına gəlməməlidir: "İşsizlik statusu almağın çox ciddi meyarları var. Ciddi araşdırmadan sonra işsiz kimi qeydiyyata düşmək mümkündür, bunun öz meyarları mövcuddur. Bu meyarlardan istifadə edərək vətəndaşa işsizlik statusu veriləcək. Burada bir maraqlı məqam da ondan ibarətdir ki, ölkənin statistikası həmişə siyasiləşmiş statistika olub. Bütün insanları işsiz kimi qeydiyyata almaq hökumətə sərf etmir. Azərbaycanda rəsmi rəqəmlərə görə, işsizlərin sayı 5 faizdir. Ancaq real rəqəmlər hesablansa, bunun ikirəqəmli hədlərə qədər yüksəldiyi bəlli olar. Burada bir siyasi məsələ olacaq - hökumət bacardıqca qeydiyyata düşmüş az işsiz sayının olmasına çalışacaq. Dövlət və hökumət qurumları işsizlərin sayının az olmasına çalışacaq. Həm işsizliklə bağlı real durumu kritik göstərməmək üçün, həm də müavinət az verilsin deyə, statistik rəqəmlərin çox da korlanmaması üçün bütün işsizlər qeydiyyata alınmayacaq. Yəni bu kimi xəbərlərin yayılması heç də o demək deyil ki, bütün işsizlər həmin qeydiyyatdan keçib 77 manat müavinət alacaqlar".

❑ RÖYA

**Müsavat Partiyasının Oğuz Təşkilatının üzvü, hazırda İsveçrədə mühacirətdə olan Babək Manafovun ailəsinə təzyiqlər edilir:**

# Müsavatçı mühacirin ailəsi təhdid altında...

## Yoldaşı deyir ki, Babək Manafovun evinə naməlum nömrələrdən zənglər gəlir; "qorxu içərisindəyik"...

"Naməlum nömrələrdən gələn zənglərdə ailəmiz, uşaqlarım təhdid edilir", deyə mühacirin həyat yoldaşı iddia edir. Binəqədi rayonunun Sulutəpə ərazisində yaşayan Manafovlar ailəsi aidiyyatı orqanlardan kömək istəyirlər.

Bu barədə "Yeni Müsavat"a müsavatçı mühacirin həyat yoldaşı Manafova İlkanə Famil qızı məlumat verdi: "Həyat yoldaşım 2015-ci il mayın 28-də İsveçrəyə getməyə məcbur oldu. Hazırda orada mühacir həyatı yaşayır. 2014-cü ildə Babəkin işlətdiyi sexi sökdülər. Həmin vaxt böyük narazılıq oldu. O zaman tam aydın oldu ki, hökumət orqanlarının bu işdə əlləri var. Çünki qonşularımızı üzərimizə saldılar. Onlar bizə şər-böhtan atdılar. Həmin vaxtlar Babəkə çoxsaylı təhdid zəngləri gəlirdi. Bu vəziyyət iki aya yaxın davam etdi. Sonda Babək məcburiyyət qarşısında ölkəni tərk etdi. O, gedəndən sonra evimizə zənglər gəlməyə başladı. Açıq şəkildə deyirdilər ki, Babək getməklə canını qurtara bilməz, onu harada olsa tapacağıq. Hazırda yenə də bu tipli zənglər davam edir. Valideyn olaraq, çox narahatam. Övladlarımın həyatını təhlükədə hesab edirəm. Babək də orada çox narahatdır. Qorxuram ki, övladlarım küçəyə çıxanda nəsə baş verər. Son bir ayda evimizə gələn zənglər mütəmadi hal alıb. Yenə də Babəki axtarırlar. İlk vaxtlar elə zənn edirdik ki, borcu ola bilər. Araşdırdığımız zaman borcunun olmadığı aydın oldu".




**İlkanə Manafova:**
"Övladlarımın həyatı təhlükədədir"

İ. Manafova həyat yoldaşı müsavatçı olduğuna görə bu cür təzyiqlərlə üzləşdiklərini iddia edir: "Babək fəal müsavatçıdır. Burada olduğu vaxtlarda bütün aksiyalarda fəal iştirak edib. Həmin vaxtlar çox təzyiqlərlə üzləşirdi. Dəfələrlə həbs olunub, işgəncələrə məruz qalıb. Evimizə gələn zənglərin kimlər tərəfindən edildiyini deyə bilmərəm. Çünki özlərini təqdim etmirlər. İki övladım məktəbə gedir. Məcburam ki, hər gün



onları məktəbə aparım. Bir azyaşlı övladım da var. Çox çətin durumdayıq. Üç uşaqla evin altında yaşayan tək qadınam. Babək başını götürüb buralardan getdi. O, 2005-ci ildən Müsavatın üzvüdür. Atası da fəal müsavatçı idi. Oğuz təşkilatının yaradıcılarından idi. Hər mitinqlər öncəsi Babək saxlanılırdı. Yaşadığımız yerdə hər kəs onu fəal müsavatçı sayırdı. Hazırda Babəkin əvvəllər işlətdiyi sex bağlıdır. Heç kəs işlətmir. Çünki icazə vermirlər. Uşaqlarıma görə çox narahatam. Övladlarımdan böyüyün 9, ortancılın 7, kiçiyin isə 2 yaşı var".

❑ **Cavanşir ABBASLI**



# Azərbaycanda benzin ən azı, 30% ucuzlaşa bilər

## Ekspertlər buna gedilməməsinin səbəblərini göstərir, rəsmi qurumlar isə vəziyyəti əsaslandırmağa çalışır...

**Neftin qiymətinin dünya bazarında aşağı düşməsi digər ölkələrdən fərqli olaraq, Azərbaycanda benzinin ucuzlaşmasına səbəb olmur. Hətta SOCAR prezidenti Rövnəq Abdullayev Bakı Biznes Mərkəzində gənc neftçilərlə görüşdə bildirib ki, "Azərbaycanda yanacağın qiymətinin neftin dünya qiyməti ilə heç bir bağlılığı yoxdur".**

Onun sözlərinə görə, bizdə neftin qiymətini Tarif Şurası Azərbaycan iqtisadiyyatı və orta qiymətlər fonunda müəyyən edir: "Azərbaycanda cəmi bircə dəfə daxili bazarda qiymət xarici bazardakından bir az yüksək olub. O da cəmi bir-iki ay davam edib. Hazırda Azərbaycanda neftin qiyməti 40 sentdir. Bu, ABŞ-dakı qiymətlərlə müqayisədə çox ucuzdur",- deyə SOCAR prezidenti bildirib.

Ekspertlər isə benzinin ucuzlaşmaması üçün əsas olmadığını vurğulayırlar. **Ekspert Samir Əliyevin** sözlərinə görə, yanacağın ucuzlaşdırılması ölkədə daşınma xərclərini əhəmiyyətli dərəcə aşağı sala bilər. Bu da malın, xüsusilə də kənd təsərrüfatı məhsullarının maya dəyərini azalda bilər. Xüsusilə də idxalı əvəzləşdirmək baxımından bu, aqrar sektoru inkişaf etdirmək üçün dövlət tərəfindən fermer təsərrüfatına verilən dəstək ola bilər".

Onun sözlərinə görə, yanacağın qiyməti sonuncu dəfə 2013-cü ildə artırılanda dünya bazarında neftin bir bareli 110 dollara satılırdı: "Yəni neftin bahalaşmasını əsas gətirərək yanacaq bahalaşdırılmışdı. Ondan öncə artım isə 6 yanvar 2007-ci il tarixində olmuşdu. Həmin vaxt "qara qızıl"ın qiyməti 60 dollardan da aşağı olub. Nəticədə Aİ-92 və Aİ-80 markalı benzinlər 70 qəpik, dizel yanacağı isə 60 qəpik olub. İndi isə dünya bazarında neftin qiyməti 2007-ci il səviyyəsindən təxminən 2 dəfə, 2013-cü il səviyyəsindən isə 3,5 dəfə aşağıdır. Ancaq qiymətlər hələ də 110 dollarlıq neft qiymətinədir. Şəkəri bahalaşdırırıq ki, xammal özümüzün deyil. Geyimləri bahalaşdırırıq ki, özümüzdə istehsal olunmur. Benzin və dizel 100 faiz Azərbaycan istehsalıdır. Xammalı da, istehsalı da. Bəs, onda niyə yanacaq baha saxlanılır? 95 markalı benzin idxal olunduğu üçün devalvasiya səbəbindən onun qiymətini ucuzlaşdırmaq mümkün olmayacaq. Ancaq Aİ 92 və 80, dizel yanacaqlarında ucuzlaşdırmanı problemsiz etmək olar".

**Ekspert Vüqar Bayramov** qeyd edib ki, indiki halda yerli istehsal olan benzinin qiymətinin 30 faiz ucuzlaşması mümkündür. Onun sözlərinə görə, benzinin ucuzlaşması bir çox sahələrdə xərclərin azalmasına, gəlirlərin artmasına səbəb olacaq: "Azərbaycanda benzinin qiymətinin ucuzlaşması ilə bağlı ümumi tarazlıq modelindən istifadə edilir. Biz ümumi tarazlıq modelinə əsasən benzinin qiymətinin neçə faiz ucuzlaşmasının iqtisadiyyata nə qədər müsbət təsirlərinin olmasını müəyyənləşdirməyə çalışırıq. Bizim modelimiz göstərir ki, indiki halda yerli istehsal olan benzinin qiymətinin 30 faiz ucuzlaşması mümkündür. Benzinin qiymətinin 70 qəpikdən 50 qəpiyə endirilməsi büdcə gəlirlərinə ciddi mənfi təsir göstərməyəcək. Çünki benzinin ucuzlaşması imkan verəcək ki, digər sahələrdən qazanılan dəyər vergisi çox olsun". O, qeyd edib ki, benzinin ucuzlaşması beynəlxalq yükdaşımaların xərcinin də azalmasına imkan verəcək.

**Ekspert Natiq Cəfərli** də benzinin qiymətinin əvvəlki həddə qalmasının normal olmadığını vurğulayıb: "Bunun yeganə səbəbi bazarda inhisarçı şirkətin olmasıdır. "SOCAR Trade" şirkəti bu işdə digər treyderlərin iştirakına imkan vermir və mövqeyindən istifadə edərək benzinin qiymətini yenə də həmin həddə saxlayır".

❑ **RÖYA**

# İcra strukturlarında rüşvətə "stop" qoyulduğu təsdiqlənir

## "Ərəb baharı" zamanı müşahidə olunan proses qayıdıb

**2011-ci ilin əvvəlində başlanan ərəb inqilabları zamanı olduğu kimi yenə də icra orqanlarında rüşvətə "stop" qoyulub. Bu barədə əldə etdiyimiz xəbərlərdə deyilir ki, notariuslardan tutmuş, əhalinin tez-tez müraciət etdiyi digər bütün dövlət orqanlarında son vaxtlar rüşvətsiz işləmək sisteminə keçilib.**



Hakimiyyət yuxarı dairələrindən əhalinin maddi vəziyyətinin ağır olduğu və rüşvətxorluğun narazılığı bir qədər də artırdığını nəzərə alaraq belə bir göstəriş verilib.

Xatırladaq ki, "Ərəb baharı"nın baş qaldırdığı zamanlarda da dövlət orqanlarında rüşvətə son qoyulmuşdu. 2011-ci ildə bölgələrdə etiraz aksiyalarının bir-birilə əvəzləməsi də məhz özbaşınalıqlardan bezən xalqın üsyanı idi. Məsələn, həmin dövrdə "ərəb baharı"nın rüzgarından ehtiyatlanan hakimiyyət rüşvət yığılmasına "məzuniyyət" verdi, məhkəmələr sadə vətəndaşların xeyrinə qətnamələr çıxardı, notariat kontorlarında rüşvət dayandırıldı, nazirlər bir-bir bölgələrə vətəndaşların qəbuluna göndərildi, icra başçıları camaatın ayağına getməyə başladılar.

Bundan sonra inqilabi bir proyekt həyata keçirildi - Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin filialları fəaliyyətə başladı. Lakonik adı "ASAN Xidmət" olan bu layihə iqtidarın "ərəb baharı"ndan qorunması ilə yanaşı, sosial narazılıqların qismən azalmasına yardım etdi.

İnsafən, indi şəxsiyyət vəsiqəsi, nikah şəhadətnaməsi, müxtəlif dövlət orqanlarından zəruri sənədləri ASAN- Xidmətdən çox asanlıqla əldə etmək olar. Həm operativ, həm də qeyri-rəsmi rüsum tələb edilmədən lazımi sənədləri almaq mümkündür.

ASAN- Xidmət dayanıqlı olsa da icra orqanlarında rüşvətə "stop" deyilməsinin müvəqqəti, kampaniya xarakterli olduğu ortaya çıxdı. "Ərəb baharı" təhlükəsi ötüşdükdən sonra əvvəlki sistem bərpa edildi.

Aradan beş ilə yaxın keçib "Ərəb baharı" təhlükəsi olmasa da ondan heç də geri qalmayan iqtisadi böhrandan doğa biləcək etiraz dalğası təhlükəsi hiss edilir. Rüşvətə "stop" da bunun üçün verilib.

**Bu mövzuda danışan politoloq Qabil Hüseynli** bildirdi ki, hansı situasiyada həyata keçirilməsindən asılı olmayaraq rəsmi strukturlarda rüşvət hallarının qarşısının alınması müsbətdir. Təsadüfi deyil ki, bu, sadə insanlar tərəfindən rəğbətlə qarşılanır: "Bu gün insanlar üçün qəpiyin belə, əhəmiyyəti var. Yəni böhran amilləri insanları o qədər sıxışdırıb çətin vəziyyətə salıb ki, onlar üçün qəpik də əhəmiyyətli dəyər daşıyır. Belə bir durumda insanların hansısa işləri üçün az miqdarda rüşvət verməsi belə, onlara yükdür. O baxımdan da rüşvətə "stop" deyilməsi əhalidə məmnunluq yaradır və insanları ruhlandırır. Ölkə prezidenti də bildirmişdi ki, bütün bu mənfi hallara mübarizə aparmaq üçün ictimai rəy fəal olmalıdır, ictimai rəyin, medianın gücündən istifadə etməliyik. Ona görə də rüşvətxorluq hallarına, insanlardan bac-xərac yığılmasına qarşı hər bir fərd fəal olmalıdır, rüşvət verməkdən imtina etməlidirlər. Müvafiq orqanlara, prezidentin yeni yaratdığı Apelyasiya Şurasına müraciət etməlidirlər. Ölkədə vətəndaşların ərizə və şikayətlərinə baxılması proseduru təkmilləşdirilir. Bu da ictimai fəallığın artmasına gətirib çıxarmalıdır".

Q.Hüseynli vurğuladı ki, rüşvət alma hallarının dayandırılmasının "Ərəb baharı"nın ilk vaxtlarında olduğu kimi kampaniya xarakteri daşımaması, müəyyən müddətdən sonra rüşvətxorluğun yenidən başlamaması üçün insanların özləri də ciddi şəkildə fəal olmalıdırlar, rüşvət verməməli, rüşvət istəyənlərdən şikayət etməli, öz haqları uğrunda mübarizə aparmağı bacarmalıdırlar. İmkan verməməlidirlər ki, rüşvətxor və dələduz məmurlar onların haqlarını yesin: "Rüşvətxorluğa birdəfəlik son qoyulması üçün bu amillər mütləqdir. Kadr islahatları da yəqin ki, davam etdiriləcək. Kadr islahatları iş başına rüşvətdən uzaq adamların gətirilməsinə ümid edək ki, səbəb olacaq. Belə olsa rüşvətə, məmur özbaşınalığına qarşı mübarizə aparmaq xeyli asanlaşacaq".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016



# Bir az hamilə iqtisadiyyat

Zamin HACI
zaminhaci@mail.ru

**“Analoqu olmayan ölkə” söhbətini zarafata salırdıq, ancaq hər gün bir daha əmin olursan ki, yapistlərin bu məşhur şüarında həqiqət əmsalı yetərincə yüksək imiş.**

Örnək üçün, benzin, başqa avtomobil yanacaqları neftdən alınır, bu baxımdan onların qiyməti sivil dünyada neftin qiymətindən asılı olur. Neft ucuzlaşırsa, avtomatik benzin də ucuzlaşır və ya tərsinə. Ümumiyyətlə, istənilən məhsulun qiymətini əmələ gətirən komponentlər vardır, bunlardan istehsal xərclərini, daşınma xərclərini, vergiləri, tələb və təklifin nisbətini və sairəni sadalamaq olar. Söhbət maddi əşyadan gedirsə, burda ilk növbədə xammal xərcləri, benzindən söhbət gedəndə isə neftin dəyəri əsas olmalıdır.

Ancaq görün SOCAR (oxucumuz Vasif Həsənov bu şirkətin adını “SÖKapAR” şəklində yazmağı təklif edir, mən bu təklifə qarışa bilmərəm, vətəndaş bilər, hökumət bilər, mənə nə dəxli?) prezidenti Rövnəq Abdullayev iki gün qabaq Bakı Biznes Mərkəzində gənc neftçilərlə görüşərkən nə deyibdir. Sitat: “Azərbaycanda yanacağın qiymətinin neftin dünya bazarındakı qiyməti ilə heç bir əlaqəsi yoxdur”.

Əlaçı. Bərəkallah. Necə deyərlər, Allah yanında yatanlara rəhmət eləsin. Bunu deyin da bə! Yoxsa milləti qabaqlar aldadırdılar, benzin bahalaşanda deyirdilər dünya bazarında neft bahadır, neyləyə bilərik. Sanki bu zibilə qalmış maddəni biz xaricdən alıb gətiririk, öz altımızdan çıxmır. Həm də maraqlıdır ki, SOCAR-ın xaricdəki YDM-lərində benzinin qiyməti neftin dünya bazarı qiymətindən asılı olurdu, ölkəmizin daxilində isə soyğunçu vergilər üzündən baha çıxırdı.

Bəs bu benzinin qiyməti neftdən asılı deyilsə, nədən asılıdır? Təvazökarlıq olmasın, mən hələ keçən ilin sentyabrında “Yeni Müsavat”da çıxan “Benzin niyə bahadır” adlı yazımda Azərbaycanda benzinin qiymətini formalaşdıran amilləri sadalamışdım. Sitat: “Azərbaycanda YDM-də satılan 1 litr benzinin maya dəyərində yuxarıdakılardan başqa da komponentlər vardır. Bunlar aşağıdakılardır:

10 qəpik - sadə rüşvət;

15 qəpik - ümumi yaltaqlıq vergisi (yaltaqlara yardım üçün xüsusi fonda toplanır);

12 qəpik - polisin və prokurorun paket pulu fondu;

1 qəpik - Yazıçılar Birliyi və Anar müəllimin qəlyan pulu və sairə".

İndi Rövnəq müəllimin sözünün qüvvəti, Azərbaycanda heç nəyin dünya ilə əlaqəsi, bağı yoxdur. Bunu dahi klassikimiz hələ 19-cu əsrin ortasında hiss eləmişdi və yazmışdı ki, əgər bizdə çox arvad almaq adətdirsə, Parijdə çox ər almaq adətdir.

Belə bir söz də var, deyərlər azacıq hamiləlik olmur. Yəni, hamiləsənsə, tam hamilə olursan, ya da olmursan. Bunu bazaar iqtisadiyyatına da aid eləmək olar, bazar iqtisadiyyatı ya tam olur, ya da heç olmur. Ya iş adamına tam azadlıq verirsən, rəqabət mühiti yaradırsan, qanunlar hökm sürür, ya da sahibkarı tutub boğursan. Bir az boğum, bir az işləsin - belə mümkün deyil. Tarix göstərib. Ancaq bu da bizim ölkədə keçərli qayda olmamışdır. Örnək üçün, iki gün qabaq dövlət Tarif Şurasının tənzimlədiyi qiymətlər sırasından nəqliyyatda sərnişin daşımanı çıxardı. Bunun sadə izahı belədir ki, ay camaat, hazırlaşın, avtobusun, metronun-zadın qiyməti qalxacaq, qiymətləri açıb buraxdılar, məsuliyyəti də üzərlərindən atdılar: “Neyləyək, biz qiyməti tənzimləyə bilmərik, artıq bu sahə azaddır, sahibkar bilər, sərnişin bilər” və sairə.

Lap əla. Qiymətlərin bazarda tənzimlənməsi əslində normal şeydir. Ancaq bu siyasət niyə yarımçıq olur? Necə olur ki, avtobusun daşıdığı adamın yol pulunu müəyyən eləməyi bazarın ixtiyarına buraxırsan, elə həmin avtobusun bakına tökdüyü benzinə isə özün və anormal yüksək qiymət qoyursan?

Manatın üzən məzənnəyə buraxılması anekdotu da təxminən bunun tayı idi: dolların guya bazar kursunu bankların ixtiyarına buraxdılar, ancaq sonra valyutadəyişmə məntəqələri ümumiyyətlə ləğv olundu. Bəs bu manat və dollar harda üzüb yarışsınlar? Hovuz yoxdursa.

Ancaq baş həkim söz verib, deyir özünüzü yaxşı aparsanız hovuza su da buraxacağam.

# “Allaha şükür etməliyik ki, müharibə başlamadı” - professor İlham Rəhimovun müsahibəsi

## Hüquqşünas-alim: “Biz effektli məhkəmə-hüquq islahatları aparsaq, bunun iqtisadiyyata da effektli təsiri olacaq...”

**Fevralın 5-də hüquq professoru, tanınmış iş adamı, xeyriyyəçi İlham Rəhimov “Yeni Müsavat” qəzetinin dəvəti ilə redaksiyada olub və jurnalistlərin suallarını cavablandırıb. Rusiya-Türkiyə münasibətlərindəki son durum, bu münaqişənin kökləri, barışıq perspektivləri ilə bağlı fikirlərini açıqlayan İlham Rəhimov konfliktlə bağlı özəl düşüncələrini bölüşüb. Başda devalvasiya olmaqla, gündəmin əsas mövzularına baxışlarını bölüşən professor, eyni zamanda, elmi yaradıcılığı, biznes fəaliyyəti, Rusiyada və Azərbaycanda yaranan iqtisadi böhran səbəbi ilə iş adamlarının həyatında yaranan çətinliklərə də toxunub.**

Qonağı salamlayan baş redaktorumuz Rauf Arifoğlu onunla söhbətə də gündəmin əsas mövzularından biri olan Rusiya-Türkiyə münaqişəsi ilə başladı.

***- Professor, təşəkkür edirik ki, vaxt ayırıb, redaksiyamıza gəldiniz. Bu fürsətdən istifadə edib, çoxlarını düşündürən bir mövzuya dair sizdəki məlumat və mülahizələri almaq niyyətindəyik. Söhbət Rusiya və Türkiyə arasında yaranan təyyarə qalmaqalından və onun davamı olaraq iki ölkənin münasibətlərinin tamamilə pozulmasından gedir. Razılaşarsınız ki, bu iki dövlətin arasındakı vəziyyət Azərbaycanı da təsirləndirir və bizim üçün də çox önəmli mövzudur. Ona görə də hesab edin ki, bu sualı Türkiyə və Azərbaycandakı bəzi həmkarlarımızın da adından Sizə veririk. Bu yaxınlarda Siz bir açıqlama verdiniz ki, “mən Türkiyə ilə münasibətlərin pisləşməsinə görə Vladimir Putinin necə xəyal qırıqlığı yaşadığını təsəvvür edirəm”... Rusiya və Türkiyə siyasətinə yaxından bələd olan biri kimi, Sizdəki məlumat necədir? Pozulmuş münasibətlərin düzəlmə şansı varmı?***

- Sizə səmimi deyirəm, bu məsələ məni çox üzdü. Ona görə yox ki, bu iki ölkə arasında ötən əsrlərdə olmayan isti münasibətlərin yaradılmasında uzun illər çalışandan biri də mən olmuşam. Həm də ona görə ki, bu münasibətlər heç bir siyasi səbəb olmadan Türkiyə və Rusiya xalqlarının öz istəkləri sayəsində yaranmışdı. Bu zamanın təbii tələbi idi. Bu baxımdan V.V.Putinin və R.T.Ərdoğanın səyləri sayəsində bu yaxınlıq qısa müddət ərzində özünün yüksək həddinə çatdı. Diqqət edin, elə bir beynəlxalq statuslu tədbir olmurdu ki, bu iki lider görüşüb müxtəlif məsələləri müzakirə etməsinlər. Ona görə də, bu gün bu iki ölkə arasında mövcud olan çox soyuq münasibətlər Türkiyə və Rusiya vətəndaşlarını narahat etməyə bilməz. Qeyd etmək istəyirəm ki, rəsmi məlumatlara görə, hazırda Rusiya və Türkiyə vətəndaşları arasında 200 mindən çox nikah bağlanıb. Almaniyadan sonra Rusiya Türkiyəyə gedən turistlərin sayına görə ikinci yerdədir. Türkiyə Almaniyadan sonra Rusiya qazının nəhəng alıcısıdır. Türkiyənin tikinti şirkətləri Rusiyanın dövlət sifarişlərini yerinə yetirənlərin sırasında ən ön sıradadır. Mənim Türkiyədə çoxlu dostum, tanışım (onların içərisində siyasətçilər, alim-hüquqşünaslar, vəkillər, sadə adamlar var) baş vermiş hadisəyə görə təəssüflənirlər.

***- Bəs hadisələr bundan sonra necə davam edəcək?***

- Demək çətindir. Görürük ki, münasibətlər daha da gərginləşir. Düşünürəm ki, insidentin əvvəlində bəlkə də münasibətləri nizamlamaq olardı.

***- Bəs onda bu cür yaxşı münasibətlər bir anda necə pozuldu?***

- Görünür ki, Türkiyə bu münasibətlərin təkrar yaxşılaşmasına çalışır. O ki qaldı, Rusiya tərəfə, Rusiyanın bu məsələdə prinsipial mövqeyini bilirsiz. Bu, o vaxt alına bilər ki, Rusiyanın qoyduğu şərtlər yerinə yetirilsin. Əsas da odur ki, Rusiya Türkiyənin üzr istəməsini gözləyir.

***- Üzr məsələsi bu qədərmi prinsipialdır?***

- Allaha şükür etməliyik ki, bu insident müharibənin başlanması ilə nəticələnmədi. Ona görə ki, tarixə baxsaq, müharibələrin hamısı kiçik bir insidentlə başlayır. Bu məsələdə iki tərəfin də özünü səbirli aparması müharibənin başlamasının qabağını aldı. Amma məsələ çox ciddi idi və ciddi də qalır. Bilirsiz, söhbət təkcə hava sərhədini pozmaqdan getmir axı. Söhbət bir dövlətin digər bir dost dövlətin hərbi təyyarəsini vurmaqdan gedir. Burada mübahisəli məqam da var: tərəflərdən biri deyir ki, sərhəd pozulub, o biri deyir, pozulmayıb. Bunu qoyaq bir kənara. Hər gün belə baxsaq, dövlətlər bir-birinin sərhədini nə qədər keçir, bilirsizmi? Dənizdən də, qurudan da, havadan da. Türkiyə təyyarələri yalnız 2014-cü ildə 2244 dəfə Yunanıstanın hava sərhədlərini istəmədən pozub. Yunanıstan təyyarələri manevr edərkən bəzi hallarda ildə 1300-1500 dəfə Türkiyənin hava sərhədinə istəmədən daxil olur. 2012-ci ilin 3 ayı ərzində Yunanıstan, İtaliya, Fransa, İspaniya, İsrail təyyarələri Türkiyə hava sərhədini 15 dəfə pozub... Bunlar hamısı rəsmiləşmiş statistikadır. Amma o təyyarələrdən heç biri vurulmayıb. Bu dəfə də vurulmamalı idi. Üstəlik, bunu ayrıca, diplomatik yolla da həll etmək də mümkün idi. Nota vermək olardı, məsələni danışıqlarla yoluna qoymaq mümkün idi.





**“Allaha şükür etməliyik ki, bu insident müharibənin başlanması ilə nəticələnmədi. Ona görə ki, tarixə baxsaq, müharibələrin hamısı kiçik bir insidentlə başlayır. Bu məsələdə iki tərəfin də özünü səbirli aparması müharibənin başlamasının qabağını aldı”**

***- Bəzi ekspertlər iddia edir ki, Türkiyə-Rusiya münasibətlərinin pisləşməsi və düzəlməməsi Qərbə, NATO dövlətlərinə, Amerikaya sərf edir. Onları toqquşdurmaq, müharibə vəziyyətinə gətirmək bu tərəflər üçün sərfəlidir. Belə bir iddiaya qatılırsınızmı?***

- Gəlin tarixə baxaq. Sovet dövründə NATO-nun ən böyük, geniş, güclü bazası harada olub? Türkiyədə. Bu, SSRİ faktoru ilə bağlı idi. Çünki onun sərhədləri Türkiyəyə yaxın idi. Türkiyə NATO, Qərb üçün hərbi nöqteyi-nəzərdən çox mühüm dövlətdir. Bu, həmişə belə olub. SSRİ dağılandan sonra çox tez bir vaxtda Rusiya ilə Türkiyə arasında güclü istiləşmə prosesi getdi. Bu prosesi rəsmi dövlət qurumları başlamadı, xalq özü etdi. Türk iş adamları Rusiyaya getdi, Rusiyadan Türkiyəyə turistlər gəldi, xalq özü qabağa düşdü və münasibətlər çox yaxşılaşdı. Dövlət başçıları gördülər ki, onlar xalqdan geri qalıblar. Ona görə də, münasibətləri rəsmi qaydada yaxşılaşdırmağa məcbur oldular. Bu da ən çox Putinin hakimiyyəti dövründə oldu. O, yeganə dövlət başçısı idi ki, Türkiyəyə rəsmi səfərə getdi. Ondan öncə də SSRİ vaxtında heç bir dövlət başçısı Türkiyəyə rəsmi səfərə getməmişdi. Türkiyə ilə Rusiyanın münasibətlərinin bu cür istiləşməsində Putinin rolu böyük olub. Mənim yadımdadır ki, hələ Putin Türkiyəyə getməmişdən qabaq mən təşəbbüs göstərdim. Rusiyada Dövlət Dumasının çox böyük tərkibində parlament üzvləri Türkiyəyə getdilər. Sonra Türkiyədən də Rusiyaya parlament üzvləri gəldilər. Bunun təşəbbüskarı mən idim. Aydın məsələdir ki, bu da Putinin razılığı ilə olmuşdu. Demək istəyirəm ki, o vaxtdan çox adamlar, o cümlədən mən də, siyasətçilər də çalışırdı ki, bu iki dövlətin arasında isti münasibətlər olsun. Təbiidir ki, bu proses çox güclü gedirdi. Qaz kəməri, ikinci kəmər açma planı... vardı. İki güclü dövlətin - biri NATO-nun üzvüdür, regional super dövlətdir; biri isə ikinci qütbü bilavasitə təşkil edir, dünya super dövlətidir - münasibətlərinin son dərəcə yaxınlaşması prosesi müşahidə edən Amerikanı, NATO-nu çox narahat edirdi. Ona görə də nəsə etmək istəyirdilər ki, bu münasibətlər pozulsun. Bu insidentin özü üçüncü qüvvənin istəyi ilə baş verdi. Fikirləşirəm ki, kimlərsə dünyanın bu iki güclü dövləti arasında münasibətlərin müsbət inkişafını heç görmək istəmirdi. Ona görə də, nəsə edilməliydi, yoxsa bu dostluq sürətlə inkişaf edirdi, nəticəsini də gördünüz.

***- Siz deyirsiz ki, bu məsələdə rəsmi Moskvanın mövqeyi çox sərtdir, Putin baş vermiş insidentlə bağlı ciddi xəyal qırıqlığı yaşayır... Bəs, bu məqamda niyə Putin hakimiyyəti daha öncə rəsmi Ankaranın “Rusiya bizim hərbi hava sərhədlərimizi pozmamalıdır” xəbərdarlığını, prinsipial mövqeyini xatırlamır?***

- Birincisi, sizin dediyiniz belə xəbərdarlıqlar ancaq bir dəfə olub. İkincisi, orda baş verən situasiyanı Türkiyə nəzərə almalıydı, bilməliydi ki, bu hadisə Suriya və Türkiyə sərhədində baş verib. Orda isə hərbi əməliyyatlar gedir, savaşda iştirak edən hərbi təyyarələr tez-tez manevr edirlər... Təbii ki, bu məqamda səhvən sərhədi pozma ehtimalı istisna deyil, mümkündü. Ona görə də, ilk növbədə bu hadisənin baş verə biləcəyi ehtimalı nəzərə alınmalı idi. İkinci məqama gəlincə, Rusiyanın xəyal qırıqlığına uğramasının səbəbi bu insidentin iqtisadi və siyasi münasibətləri çox yaxşı olan dost ölkə tərəfindən edilməsi ilə bağlıdır. Bunu bu cür münasibətləri olmayan hansısa başqa bir ölkə etsəydi, inciklik bu həddə olmazdı. Putin nəyə görə dedi ki, bu, kürəyimizə saplanan bıçaq zərbəsidir? Çünki burda söhbət təkcə iki ölkə arasındakı yaxşı münasibətlərdən yox, həm də hər iki dövlətin başçıları arasındakı isti münasibətlərdən də gedir. Hər bir dövlət öz sərhədini qorumaq hüququna malikdir. İran neçə dəfə bizim sərhədlərimizi pozub, Xəzər dənizi tərəfdən. Amma biz adekvat addım atmamışıq. Rusiya ilə Türkiyə arasında pis münasibətlər olsa idi, bu halda sərhədlərin pozulması səbəbindən təyyarənin vurulmasına, bəlkə də, normal baxmaq olardı.

***- Amma indiki halda Türkiyə-Rusiya münasibətlərinin bu həddə gəlməsi bütün aspektlərdən hər iki tərəfə ciddi ziyandır. Xüsusən də, Rusiyanın bu əməkdaşlıqla bağlı qoyduğu embarqolar, onların bir hissəsini sonradan geri çəkməsi vəziyyətin kritikliyini göstərir. Bu halda tərəflər prosesdən ciddi iqtisadi itkilər verirlərsə, münasibətləri daha da gərginləşdirmək məntiqsiz görünmürmü?***

- Qlobal siyasi çıxarlar, dövlət qüruru mövzu olanda, keçici iqtisadi maraqlar bir az geridə qalır. Təbiidir ki, hər iki tərəf bu prosesdən çox şey itirir. Mənim Türkiyə siyasi elitasında da, iqtisadi çevrəsində də çoxlu dostlarım var. Onlarla danışıqlarımda da hiss edirəm ki, heç biri bu durumdan razı deyil. Eləcə də, Rusiyada. Adi insanlar da, siyasətçilər də münasibətlərin yaxşılaşmasını istəyirlər.

***- Bir az Azərbaycandan danışaq. Biz bilirik ki, sizin Azərbaycanda böyük biznesiniz yoxdur. Amma burada yaşayırsız. İndi dünyada olduğu kimi, bizdə də böhran dönəmidir. Hakimiyyət, prezident addımlar atır, müxalifət təkliflər verir. Artıq ölkənin yeni iqtisadi modelinin hazırlandığı, islahatlara start verildiyi bəlli olub. Sizin bu proses və ondan çıxış yolları ilə bağlı fikirləriniz necədir? Haqqında danışılan böyük islahatlara start verilsə, bir mütəxəssis kimi öz sahəniz üzrə təklifləriniz ola bilərmi?***



- Prinsipcə, iqtisadiyyatda keçiriləcək islahatlar barəsində təklifləri iqtisadçıların verməsi düzgün olardı. Hərçənd ki, bu məsələnin müəyyən dərəcədə həm də hüquqi islahatlara dəxli var. Ona görə də, mən məhz məhkəmə-hüquq sahəsində islahatlara dair öz münasibətimi bildirmək istəyirəm. Prinsip etibarilə, iqtisadi islahatlar hüquqi islahatlarsız mümkün deyil. Ona görə ki, qanunlar bütün dəyişikliklərin, islahatların əsasıdır, nizamlayıcısıdır. Bununla əlaqədar yeri gəlmişkən, hüquqi islahatlarla öz münasibətimi bildirəcəyəm. Həm də ki bir qədər əvvəl dövlət başçısı cənab İlham Əliyev öz tövsiyələrini bildirmişdi. Məlumdur ki, bütövlükdə hüquq sistemi sahəsində islahatlar ölkəmizdə müstəqillik bərpa olunandan sonra başlamışdı. Belə ki, məhz bizim respublikamız bütün postsovet məkanında birinci olaraq 1992-ci ildə cəzaçəkmə müəssisələrini DİN-in tərkibindən çıxarıb Ədliyyə Nazirliyinin strukturuna birləşdirmişdi. O zaman bir çoxları bu qərarın əleyhinə idi, başa düşmürdülər ki, bu qərar nə vaxtsa olası idi. Lakin biz əminliklə təsdiq edə bilərik ki, düzgün hərəkət etmişdik. Sonralar hüquq sisteminin bütün sahələrində bu dəyişikliklər həyata keçirildi. Kifayət qədər vaxt keçib, iyirmi ildən artıq. Aparılan islahatların nəticələrini təhlil etmək vaxtı çatmayıbmı? Bəlkə biz nəyisə düz etməmişik, səhv buraxmışıq. Axı məhkəmə-hüquq islahatı sosial-hüquqi prosesdir. Ona görə də, ictimai-siyasi dəyişikliklərlə bağlı olaraq o həmişə təkmilləşdirilməlidir. Bununla əlaqədar olaraq hesab edirəm ki, bizim üçün bir çox prinsipial və aktual məsələlərin müzakirəsi vacibdir. Axı imtina etdiyimiz dəyərlərin heç də hamısı zərərli və effektsiz olmayıb, necə ki, yeni olan hər şey lazımlı və faydalı deyil. Biz indi çox mürəkkəb və dolaşıq məhkəmə sisteminə malikik: ağır cinayətlər üzrə məhkəmə, apelyasiya məhkəmələri və i.a. Səmərəli məhkəmə prosesinin həyata keçirilməsi nöqteyi-nəzərindən belə bir sistem özünü doğruldurmu? Mənə elə gəlir ki, köhnə sovet məhkəmə sisteminin strukturu bizim unitar dövlət üçün daha uyğun idi. Başqa bir misal. Məlumdur ki, biz prokurorluqda ümumi nəzarətdən imtina etmişik. Mən inanmıram ki, bunun faydası oldu. Düşünürəm ki, ümumi nəzarət funksiyası indiki vaxtda bir çox cinayətlərin, ilk növbədə təsərrüfatlarda baş verən cinayətlərin qarşısının alınmasında, ən azından azaldılmasında çox xeyirli olardı. İnanıram oğurluq və korrupsiya faktları xeyli azalmış olardı.

***- Bəs polis orqanları ilə nə etməli?***

- Hesab edirəm ki, bu sistemdə də, başqa inkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınmaqla islahatlara ehtiyac duyulur. Düşünürəm ki, bu sistem iki yarım sistemdən ibarət olmalıdır: funksional olaraq qanun pozuntularının profilaktikası ilə məşğul olan profilaktika polisi, hansı ki, insanların cinayət törətmələrinin qarşısını alır. Kriminal polis isə cinayətkarlığın axtarışı ilə məşğul olur. Budur polisin funksiyaları. Ona görə də, digər strukturlar-istintaq, pasport verən orqanlar və s. DİN-in tərkibindən alınmalıdır.

***- O zaman kim istintaqla məşğul olacaq?***

- Hesab edirəm ki, hazırkı vaxtda vahid istintaq komitəsinin yaranmasına ehtiyac var. Bu qurumun kimə - prezidentə, parlamentə tabe olmasının əhəmiyyəti yoxdur. Başlıcası, istintaq hərəkətlərini bu orqan həyata keçirsin. Ümumiyyətlə, alim-hüquqşünaslardan, hazırda bu sahədə çalışanlardan sözügedən məsələlərin müzakirəsi üçün Prezident Komissiyasının yaradılması çox faydalı olardı.

Mən hesab edirəm ki, biz effektli məhkəmə-hüquq islahatları aparsaq, bunun iqtisadiyyata da effekti olacaq. İqtisadi islahatların əsasında da qanunlar, prosesin qanunlarla tənzimlənməsi dayanır. O qanun, hüquq nə qədər ağıllı, insan amili nəzərə alınaraq hazırlansa, iqtisadi islahatlar da bir o qədər yaxşı gedəcək. Nə qədər ki, biz insanları yox, ayrı maraqları üstün tutacağıq, islahatların heç bir xeyri olmayacaq. Böhran təkcə bizə aid deyil, qlobal prosesdir. Götürək Venesuelanı. Orda büdcənin 95 faizini neft amili təşkil edir. Ona görə də hazırda ölkə olduqca pis vəziyyətdədir. Rusiyanın özündə də vəziyyət ağırdır. Ərəbləri də görürsüz. Bu, qlobal məsələdir və krizisin özü hamıya eyni cür təsir edir.

***- Sizə necə təsir edib? Bir iş adamı kimi böhranın zərbəsini hiss edirsizmi? Sizin işiniz, biznesiniz Rusiyadadır və Rusiya iqtisadi baxımdan Azərbaycandan da pis durumdadır?***

- ........

*(Davamı növbəti sayımızda)*

❑ Söhbəti qələmə aldı
Sevinc TELMANQIZI





**“Putin nəyə görə dedi ki, bu, kürəyimizə saplanan bıçaq zərbəsidir? Çünki burda söhbət təkcə iki ölkə arasındakı yaxşı münasibətlərdən yox, həm də hər iki dövlətin başçıları arasındakı isti münasibətlərdən də gedir”**

# "Bu "krizis" bizə imkan verdi ki, bütün məmurlar silkələnsin"

## Fəzail Ağamalı: "Özlərində cəsarət tapıb, qələm-kağız götürüb cənab prezidentə istefaya getməklə bağlı mövqelərini ortaya qoymalıdırlar"



**"Baxış bucağı"**

**Son günlər deputat Fəzail Ağamalı deputatı olduğu 60 saylı Saylan-Neftçala dairəsindəki dükan-bazardakı monitorinqləri ilə diqqət mərkəzinə gəlib. Bazar günü isə belə bir xəbər yayıldı ki, deputat Neftçalanın Aşağı Surra kəndində çətin situasiya ilə üzbəüz qalıb ("Azadlıq" qəzeti). Belə ki, şəhid Zabil Əsgərovun adına olan orta məktəbdə müəllimlərlə görüşü zamanı müəllimlərdən biri deputata vədlərini xatırladıb. Yerli sakin təxminən bu şəkildə sual verib ki, əgər vədlərinizi yerinə yetirməyibsinizsə, indi hansı haqla bu kəndə gəlmisiz?**

Biz də nə baş verdiyini aydınlaşdırmaq üçün müraciət etdiyimiz deputata digər suallarımızı da ünvanladıq. İnsidentlə bağlı bunları söylədi:

- Bütün bunlar yalan söhbətdir. Mən sizə deyim. Demək manatın devalvasiyasından sonra unun və digər ərzaq məhsullarının qiymətinin süni şəkildə qaldırılması ilə bağlı bir kampaniya oldu. Bunun qarşısını almaq üçün, əlbəttə, özümə borc bildim ki, seçilmiş olduğum Salyan-Neftçala rayonlarının kəndlərində olum, həm də topdansatış məntəqələrinə baş çəkim, vəziyyəti yerindəcə öyrənim. Yəni lazımi addımlar atım ki, yaranmış vəziyyətdən istifadə edən kəmfürsət adamlar, möhtəkirlər süni şəkildə qiyməti artırmasınlar. Ona görə Salyanın bir çox kəndlərində oldum. Eyni zamanda Salyanın icra başçısı Tahir Kərimovla, Salyandan seçilən Əliağa Hüseynovla bir neçə topdansatış obyektlərində oldum. Orada xüsusi xəbərdarlıq da etdik ki, əgər qiymət artımı olarsa, onlara qarşı ciddi tədbirlər görüləcək. Fikrimcə, biz orda müəyyən ajiotajın qabağını ala bildik. Bundan sonra da cənab prezidentin atdığı addımla unun və un məhsullarının qiymətində sabitləşmə oldu. Mən həm də Neftçalanın Aşağı Surra kəndində oldum, kəndin girəcəyində balaca mağaza var, sahibi ilə görüşdüm, camaat gəldi, söhbət etdik. Qərara gəldim ki, kənd müəllimləri ilə də görüşək. Dərsdən sonra onlarla geniş söhbət etdik. Təbii ki, yaranmış vəziyyətlə bağlı hər hansı narahatlığa əsas olmadığını, prezidentin bütün məsələləri nəzarətdə saxladığını diqqətə çatdırdım. Dedim narahatlığa heç bir əsas yoxdur, şükürlər olsun ki, prezidentin atdığı addımlar bütün xoşagəlməz vəziyyətin qarşısını aldı. Bütün seçkilərdə anarxist mövqeyində duran riyaziyyat müəllimi var, İlham Mehdiyev. Görüş qurtaranda ora gəldi, qapıdan çıxanda qayıtdı ki, "müəllim, bəs siz filan şeyi vəd etmişdiniz". Dedim, nə vəd olunubsa, hamısı yerinə yetirilib, uşaq bağçası il bağlı məsələ Maliyyə Nazirliyi səviyyəsində həll olunub. Su, yol və digər məsələlər də həllini tapıb. Sadəcə olaraq, bu adam, görünür ki, mənim sizin qəzetdə Əli Kərimli ilə bağlı verdiyim açıqlamadan sonra "Azadlıq" qəzetinin özünəməxsus cavabından ruhlanaraq belə bir məlumatı onlara ötürüb, onlar da bunu qəzet səhifəsinə qoyublar.

Sadəcə olaraq yalan üzərində qurulan yazılara ehtiyac yoxdur.

***- Hər halda insident olub...***

- Heç bir insident olmadı. Qarşıdurma da olmadı. Orda polis var idi, ancaq mən heç polisi çağırmamışdım.

***- Fəzail bəy, bu da var ki, onsuz da xırda sahibkarları hamı yoxlayır, hətta prezident qanunsuz yoxlamaları qadağan etdi. Bəlkə sizin də iştirakınızla bir qrup deputatın sahibkarların da şikayətçi olduğu gömrükdə belə təftiş işləri aparılsaydı, bu, daha faydalı olardı, elə deyilmi?***

- Vallah, nə deyim, onda mən bundan ötrü gedim gömrükdə şəkil çəkdirim? (Gülür)

***- Amma deputat qrupunun gömrükdəki vəziyyəti şəxsən müşahidə etməsi də normal olardı...***

- Ehtiyac olsa, bəli, bu addımı da atmaq olar. Mən mətbuatda hər zaman sahibkarların maraq və mənafeyini müdafiə etmişəm. Bu məsələdə isə mən artıq sahibkarların yox, seçicilərin yanındayam.

## "4-5 il əvvəl bu və ya digər məmurdan narazılıq yox idi?"

***- Yəni siz bu addımınızı sahibkarın işinə müdaxilə saymırsınız?***

- Yox, qətiyyən. Mən əslində dükanlara baş çəkərkən ticarətçilərin vəziyyəti ilə də maraqlandım ki, sizin işlərinizə müdaxilə varmı, topdansatış yerlərində sizə artıq qiymətə mal verirlərmi və sair.

***- Gəncədəki işsizlərin toplantısı da göstərdi ki, əhalinin işsizlik problemi var və narazı insanları dinləmək ən düzgün çıxış yoludur. O mənada indiki kritik vəziyyətdən çıxmaq üçün nə təklif edirsiniz?***

- Heç bir kritik vəziyyət yoxdur. Bölgələrdə əvvəlki həyat davam edir. İnsanlar yenə iş-gücündədir, normal istirahət edir, yaşayırlar. Kimlərsə gedib bankomatın qarşısında dayanır, yaxud hansısa problemini həll etmək istəyirsə, bu, o demək deyil ki, camaatda narazılıq var. Xahiş edirəm o hadisələri bununla qarışdırmayın. Cümə günü də Salyanda fövqəladə hallar naziri Kəmaləddin Heydərovun və deputat Əliağa Hüseynovun, mənim iştirakımla çox yüksək səviyyədə görüş keçirildi. Açıq, səmimi, şablon görüşlərdən kənar bir görüş idi, insanlara sərbəst şərait yaradıldı ki, sözlərini desinlər. Salyanda nə xoşagəlməz hər hansı suala meydan oldu, nə də biz bunu onların əhval-ruhiyyəsindən hiss etmədik. Bu gün Azərbaycan əvvəlki ritmi ilə yaşayır, hər hansı narahatlıq üçün əsas yoxdur. Bəzi qüvvələr süni ajiotaj yaratmağa çalışır. Narazılıq hər zaman olub. 4-5 il əvvəl bu və ya digər məmurdan narazılıq yox idi?

***- Təbii ki, var idi, siz də tənqid etmisiniz...***

- Bəli, hər hansı məmur öz fəaliyyətində nöqsanlara da yol verə bilər. Ancaq bunu faciə kimi qəbul etmək, ümumiləşdirib ölkə miqyaslı bir hadisə kimi ortalığa gətirmək lazım deyil. Bir daha təkrar edirəm, Azərbaycan bu gün sözün həqiqi mənasında sabit, sakit, bütün kakatlizmlərdən uzaq ölkə kimi, öz əvvəlki ritmi ilə yaşayır. Bu, konyunktura deyil, mənim apardığım dəqiq müşahidələrdən çıxartdığım nəticədir. Kim razılaşmırsa, buyursun, rayonlara getsin, Bakının küçələrinə çıxsın, bulvarı gəzsin. İnsanlar yenə də restoranlarda istirahətini edir, çörəyini yeyir. Ancaq vaxt var idi bizim imkanlarımız böyük idi, daha çox pulumuz var idi, təbii ki, bu gün yorğanımıza görə ayağımızı uzatmalıyıq. Bu da normal bir şeydir, bütün dünya od tutub yanır. Azərbaycan sabit bir ölkə kimi öz ritmi ilə yaşayırsa, buna min şükür eləmək lazımdır.



## "Ölkə prezidenti öz komandasında ciddi dəyişikliklər edəcək"

***- Amma bu da var ki, nə paytaxtın həyatında əvvəlki qaynarlıq var, nə restoranlarda sifarişlər var, nə də bulvarda insan axını müşahidə olunur. Üstəlik, dükanlar, mağazaların üzərində də icarə, satışla bağlı elanlar vurulub, kifayət qədər qapalı obyektlər də öz yerində...***

- Bunlar var, mən bir söz demirəm. Demirəm ki, Azərbaycan 2-3 il bundan qabaq neftin çox böyük pullar gətirdiyi zaman səviyyəsindədir. Yox. Ancaq unutmayaq ki, bu gün qlobal maliyyə, iqtisadi böhran var və Azərbaycan da bu dünyadan təcrid oluna bilməz. Dəfələrlə deyildiyi kimi, Azərbaycanın özünü dünyadan kənarda qoyması mümkün deyil. Ona görə də təbii ki, dünyada gedən prosesləri nəzərə almaq lazımdır. Lakin Azərbaycanda kritik vəziyyət yoxdur.

***- Bəli, Azərbaycanın böyük ehtiyatları var, ancaq bu ehtiyatlardan necə istifadə olunması problemi narahatlıq yaradır...***

- Bununla bağlı ölkə prezidentinin iradəsi ortalıqdadır. Bu gün ölkənin bütün potensialı, idarəçilik sistemi səfərbərliyə alınıb. İnşallah, biz 2016-cı ildə bütün bu potensialı hərəkətə gətirməklə, idarəçilik sistemində ciddi dəyişiklik aparmaqla, onun çevik mexanizmini yaradıb hərəkətə gətirməklə ölkəni, bizi gözləyən böyük kataklizmlərdən xilas ola biləcəyik. Başqa bir faktı deyim. Əgər Azərbaycanda iqtisadi, maliyyə vəziyyəti və onun perspektivi acınacaqlı olsaydı, çətin olsaydı, Azərbaycan Londona, Suriya ilə bağlı müzakirələrə dəvət olunmazdı. O ölkələr bu müzakirələrdə iştirak edir və söz sahibidirlər ki, onlar Suriyaya maliyyə köməyi etmək iqtidarındadır. İndi baxın, görün ora kimlər dəvət olunmuşdu? Ermənistan, Gürcüstan, ya Orta Asiya respublikaları ora dəvət almamışdı. Azərbaycan ora dəvət olunursa, demək bu, ölkəmizin bugünkü inkişafının, beynəlxalq maliyyə insitutlarının Azərbaycana verdiyi yüksək dəyərin məntiqinə söykənir.

***- Artıq Administrasiya rəsmiləri səviyyəsində bölgələrdə görüşlər keçirilir. Zamanında yerlərdəki məsul şəxslər öz vəzifəsinin öhdəsindən gəlsəydi, sizcə, indi bu görüşlərə ehtiyac olardımı?***

- Bundan əvvəl ölkə prezidenti daha böyük enerji ilə, daha böyük güclə işləyirdi, regionlara gedirdi. Onun həm ölkə daxilində və xaricində çox sıx qrafiki var idi. İndi çox şükürlər olsun ki, ölkənin bütün strukturları hərəkətə gəliblər və onlar da insanların arasındadırlar, bu, çox yaxşı haldır. Vaxtilə prezidentin tapşırığı ilə ayrı-ayrı nazirlər regionlara səfər edirdilər. Lakin indiki kimi, o səfərlər kütləvi və əhəmiyyətli nəticələr verə biləcək səfərlər deyildi. Əvvəl gedib 5-3 nəfəri qəbul edirdilər.

Ya ola bilsin qəbula gələnlər əvvəlcədən hazırlanmış adamlar idi. İnsanların çoxunu görüşlərə buraxmırdılar, icra başçıları elə adamları buraxırdılar ki, guya hər şeyin yaxşı olduğunu önə çəksinlər, "hər şey əla, hər şey gözəldir" desinlər. Bu cür konyuktura da var idi. Ancaq indiki vəziyyətdə artıq ölkə prezidentinin tapşırığı ilə bütün nazirlər, Administrasiyada ciddi vəzifə tutan hörmətli məmurlarımız da artıq camaatla görüşür. Bir var nazirlərin apardığı görüşləri, bir də var eyni zamanda Administrasiyanın rəhbər adamlarının görüşləri. Bu, çox yaxşıdır. Bu krizis bizə imkan verdi ki, bütün məmurlar silkələnsin və camaatın içərisində olsun, onların nə düşündüyünü bilsinlər və öz işlərini də ona uyğun olaraq qursunlar. Bu fərqli zaman kəsiyində kimsə öz işini, öz idarəçiliyini bu şəraitə uyğun olaraq qurmasa, artıq o, heç də ölkə prezidenti tərəfindən hörmətlə qarşılanmayacaq. İndi hər kəs bütün gücü, imkanları ilə xalqın içində olmalıdır, insanları başa salmalıdırlar ki, heç nə yoxdur, hər şey normallaşacaq.

***- Son zamanlar yorulan məmurlardan çoxları danışır. Onlarla bağlı sizin fikriniz nədir?***

- Ya onlar indiki zamanın tələblərinə uyğun olaraq öz fəaliyyətlərini yenidən qurub işləməlidirlər, ya da cəsarət tapıb qələm-kağız götürüb cənab prezidentə istefaya getməklə bağlı mövqelərini ortaya qoymalıdırlar. Azərbaycanda bu gün yetərincə kadr potensialı var.

Mənə elə gəlir ki, ölkə prezidenti öz komandasında ciddi dəyişikliklər edəcək. Çünki elələri var ki, uzun illərdir köhnə düşüncə ilə yaşayır, köhnə idarəçilik prinsipi ilə hərəkət edir, zamanın tələbinə uyğun olaraq çağırışlara cavab verə biləcək təfəkkür və düşüncə sahibi deyillər. Bunların hamısı təbii ki, idarəçilikdən kənarda qalacaq, buna şübhə yoxdur.

***- Fəzail bəy, "NAZ-Lifan" almaq fikriniz varmı?***

- Hələlik maşınım hərəkətdədir - baxmayaraq ki, bir az köhnəlib. BMV-dir, 5 il əvvəl almışam. Baxım görüm, hər şey imkandan asılıdır. Nə vaxt görsəm ki, maşınım istismar müddətini bitirib, yəqin onda bu haqda düşünəcəyəm. Əgər onun görkəmi qədər keyfiyyəti də yaxşı olsa, qiyməti normaldır, niyə də olmasın, alaram...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Minsk Qrupunun formatı dəyişdirilə bilər"

## Yeni müharibəyə görə əsas məsuliyyət problemi konservasiya etməyə çalışan həmsədrlərin üzərində qalacaq; **tanınmış rusiyalı politoloq:** "Konfliktin təzədən alovlanması üçün bütün faktorlar mövcuddur..."

**Turist həmsədrlər bölgəyə növbəti səfərə hazırlaşırlar. Bu barədə artıq məlumat yayılıb. Lakin hələ ki, səfərin dəqiq tarixi bəlli deyil. Ancaq bu, nəyi dəyişir ki? Əsas məsələ onların nə vaxt gələcəyi yox, nə ilə gələcəyidir. Əks halda belə səfərlərin qara qəpiklik dəyəri qalmır.**

Məsələ də ondadır ki, diplomat-turistlər bölgəyə növbəti dəfə əliboş təşrif buyuracaqlar. Ərazisinin 20%-i işğal altında qalmaqda davam edən Azərbaycanı isə belə situasiya qane edə bilməz. Təsadüfi deyil ki, rəsmi Bakı vasitəçilərin qarşıdakı ziyarəti ilə bağlı öz şərtini açıqlayıb: Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev bəyan edib ki, ATƏT-in Minsk Qrupunun rəhbərliyi nazir Elmar Məmmədyarovun AŞPA-dakı sənədlərə münasibətdə Minsk Qrupunun tutduğu mövqe ilə bağlı məktubuna cavab verməli, həmçinin Azərbaycan xalqı və dünya ictimaiyyətinə hesabat verməlidirlər ki, nədən problem onların patronajlığı altında 24 ildir həllini tapa bilmir? Yalnız bundan sonra onlarla görüşün anlamı ola bilər. Əks təqdirdə həmsədrlər qapıdan geri qaytarıla da bilər.

Bir sözlə, turist-diplomatların budəfəki gəlişi əvvəlkilərdən fərqlənəcək - öncəliklə də Bakının ona fərqli münasibəti baxımından. Bu da təbiidir. Ona görə ki, Qarabağ münaqişəsinin həlli uzandıqca müharibə riskləri də artır. Deməli, yeni mümkün hərbi qarşıdurmanın məsuliyyəti ilk növbədə problemi on illərdir çözə bilməyən həmsədrlərin üzərinə düşəcək.

Məntiqlə Minsk Qrupu sülh prosesinin öhdəsindən gələ bilmirsə, o zaman təzə həll formatlarının yaradılmasına mane olmamalı və ya indiki formatın, tutaq ki, Türkiyə və Almaniyanın hesabına genişləndirilməsinə etiraz etməməlidir. Amma əksini müşahidə edirik - AŞPA-nın Qarabağ təşəbbüskarlığına qısqanc münasibətdən bunu hamı gördü.

***

Minsk Qrupunun tərkibinin mümkün və effektli dəyişikliyini vesti.az-a şərh edən tanınmış rusiyalı politoloq Qriqori Trofimçuk maraqlı fikirlər söyləyib. Ekspert hesab edir ki, hazırda Minsk Qrupu mürəkkəb duruma düşüb: "Bu beynəlxalq orqan nəyisə yerindən tərpətməyə qorxur, çünki bunun ardınca nə baş verəcəyini bilmir. Lakin son illər dünyada situasiya ümumən kəskin dəyişib ki, bu da öz təsirini labüd olaraq Qarabağ məsələsinə göstərəcək. Bu üzdən, düşünmürəm ki, konflikti 2014-cü ilin əvvəlində olduğu formatda uzun müddət saxlamaq mümkün olsun - Ukraynada müharibənin başladığı və Suriyadakı müharibə formatının kəskin dəyişdiyi tarixi nəzərdə tuturam. Görünür, bunu ATƏT-də də başa düşürlər. Odur ki, təşkilatın daxilində Qarabağ istiqamətində hansısa yeni impulslar peyda olur".

Politoloqun sözlərinə görə, istisna eləmək olmaz ki, Qərb mövcud formalara və müşahidəçilərin tərkibinə korrektələrə getmək üçün məhz elə rəsmi Bakıdan maksimum kəskin reaksiyalar gözləyir: "İndi Qərb ona istinad eləmək üçün istənilən böhrandan istifadə edə bilər! Nəzərdən qaçırmaq olmaz ki, bir çox xarici müşahidəçilər istərdilər ki, Azərbaycan müharibəyə cəlb olunsun və bu müharibənin gedişində də Cənubi Qafqazın özünü və xəzəryanı regionu təzədən formatlaşdırsınlar. Təbii ki, əgər Bakının Minsk Qrupunun işi ilə bağlı irad və qeydləri varsa, onları izhar eləməlidir. Ancaq iş ondadır ki, bu, hansı anda və hansı formada ediləcək".

Rusiyalı ekspertin fikrincə, Azərbaycan rəsmi iradlarını səsləndirməklə yanaşı, avtomatik şəkildə problemə dair Qərbin, Rusiyanın və bütün maraqlı tərəflərin diqqətini cəlb edəcək innovasion tezislər də irəli sürməlidir: "O sırada Bakı formatın dəyişdirilməsindən danışarkən onun tərkibinə dair konkret təkliflərini bildirməli və hamını inandırmalıdır ki, məhz bu format uğur qazanmaq üçün bütün şanslara malikdir. Ayrı sözlə, Azərbaycanın əleyhinə işləyəcək emosionallıq yox, konkretlik lazımdır. İstisna eləmək olmaz ki, Minsk Qrupu həqiqətən tam gücü ilə işləmir və böyük vəsaitlər xərclənsə də məsələ ilə formal məşğul olur. Fikrimcə, xərclənən vəsaitlərlə bağlı informasiya da beynəlxalq ictimaiyyət üçün maraqlı olardı. Kobud desək, həmsədrlərin qaldığı oteldəki komfortun səviyyəsi reallaşdırdıqları ideyaların səviyyəsinə uyğun olmalıdır. Əgər ideyalar yoxdursa, o zaman onlar qoy hərbi çadırlarda yaşasınlar və vedrədəki soyuq su ilə yuyunsunlar".

***

Dağlıq Qarabağ konfliktinin həllinin niyə düyünə düşməsinin səbəblərini Avropa İttifaqı məsələləri üzrə ixtisaslaşmış, mənzil-qərargahı Brüsseldə yerləşən nüfuzlu Avropa Siyasəti Mərkəzinin hazırladığı geniş təhlili hesabatdan da aydınca görmək olar.

Hesabatda Rusiyanın Qarabağ münaqişəsində oynadığı rola geniş yer verilib. Qeyd olunub ki, Rusiya Cənubi Qafqazda "həm sülhyaradıcı, həm qızışdırıcı, həm silah təchizatçısı, həm regional polis, iqtisadi hegemon və "ənənəvi dəyərlərin" müdafiəçisidir". Hesabat müəlliflərinə görə, Rusiya regionda Ukraynada olduğundan daha böyük alətlərə malikdir.



Qriqori Trofimçuk

"Həmsədrlər arasında Rusiya xüsusilə fəaldır. Xarici işlər naziri Sergey Lavrov bu yaxınlarda danışıqlar prosesinin irəlilədilməsi üçün bir neçə ideya təklif edib. Bu ideyaların təfərrüatları açıqlanmasa da, onların Fransa və ABŞ tərəfindən qəbul olunduğu bildirilib" - analitiklər bildirib.

Təhlildə o da xatırladılır ki, Qarabağ münaqişəsi Rusiyanın regiondakı hegemonluğunun aləti kimi qalmaqda davam edir. Qeyd edilir ki, üstəlik Rusiya burada 1994-1998-ci illərdə yalnız Ermənistanı dəstəkləməklə buraxdığı səhvi təkrarlamaq fikrində deyil. O zaman Azərbaycan məhz bu səhv ucbatından Qərbin orbitinə düşmüşdü.

Hesabatda həmçinin Moskva-Ankara münasibətlərinin korlanması da Dağlıq Qarabağ münaqişəsinə mənfi təsir göstərən faktorlardan biri kimi qeyd olunub. "Belə ki, Rusiya Ermənistanı müttəfiq hesab edirsə də, Azərbaycan və Türkiyə arasında sıx münasibətlər mövcuddur. Regionun Türkiyə-Rusiya qarşıdurmasının alovuna düşməməsi üçün bütün tərəflərdən təmkin və müdriklik tələb olunacaq" - müəlliflər vurğulayıb.

Münaqişənin yaxın perspektivləri barədə isə hesabatda deyilir ki, nə Bakının, nə də İrəvanın müharibənin yenidən alovlanmasını istəməmələri sülhün qarantiyası kimi qəbul edilməməlidir. Təhlilçilərin fikrincə, konfliktin təzədən alovlanması üçün bütün faktorlar artıq mövcuddur. Hesabatda deyilir ki, Avropa İttifaqı nəhayət Qarabağ münaqişəsinin çözümü istiqamətində konkret addımlar atmalıdır. "Qarabağ münaqişəsi bundan sonra Rusiyanın periferiyasında lokal problem kimi deyil, Avropa İttifaqının qonşuluğunda qorxulu sabitsizlik mənbəyi və potensial böhran kimi qiymətləndirilməlidir", - deyə təhlilçilər xəbərdarlıq edir.

***

Göründüyü kimi, ilin ikinci ayı başlasa da, yaxın perspektiv üçün ekspertlər səviyyəsində Qarabağ probleminin həll perspektivi ilə bağlı pozitiv heç bir şey söylənilmir. Bu isə konfliktə cəlb olunmuş bütün maraqlı tərəfləri, xüsusən də işğalçı Ermənistanı və onun havadarlarını ciddi düşündürməlidir. Hər halda, müharibə hamının bölgədəki maraqlarını təhlükə altına qoyacaq.

## Xocalı soyqırımı Berlində anılacaq



**Almaniya Azərbaycanlılarının Koordinasiya Mərkəzi, Azərbaycanlı Tələbələr Şəbəkəsinin Berlin ofisi, Berlindəki "Azərbaycan Evi" və Şəhidlik Məscidinin rəhbərliyi Xocalı soyqırımının ildönümü ilə əlaqədar yerli ictimaiyyətlə görüş keçirəcək.**

Fevralın 24-də keçirilməsi planlaşdırılan tədbirə Azərbaycanın və Türkiyənin Almaniyadakı səfirliklərinin nümayəndələri də qatılacaq. Almaniyada yaşayan soydaşımız, tədqiqatçı Rüfət Səttarov görüş iştirakçıları qarşısında din, siyasət və münaqişələr mövzusunda mühazirə ilə çıxış edəcək. Eyni zamanda, həmin gün Şəhidlik Məscidinin mədəniyyət mərkəzində Xocalı soyqırımına həsr olunmuş fotosərginin açılışı da nəzərdə tutulur. Sərgi iki həftə nümayiş olunacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



## Məşhurlardan kim sevgi və ya görücü üsulu ilə evlənib?

### Onların içində əhdinə xilaf çıxan yoxdur...

**Məşhur və tanınmışların şəxsi həyatı hər zaman maraq dairəsində olub. Xüsusən də kimin necə ailə həyatı qurması, sevgisi, başına gələn maraqlı əhvalatlar və sair. Bu günlərdə deputat Fazil Mustafanın "Yeni Müsavat"a müsahibəsində səmimi etiraflar edərək "Mən "Arşın mal alan"dakı kimi evlənmişəm"" deməsi diqqətimizdən yayınmadı. Bəs görəsən daha hansı məşhur "Arşın mal alan"dakı kimi, yəni görücü üsulu ilə və yaxud sevərək evlənib?**

Araşdırmamız zamanı məlum olub ki, xalq şairi Fikrət Qoca 45 illik ömür-gün yoldaşı Raya Qocayeva ilə sevib evlənib. Bu, onun ikinci evliliyidir və xanımı ondan 15 yaş kiçikdir. Raya xanımın müsahibələrinin birində dediyinə görə, F.Qoca ilə ilk dəfə Kür qırağı ətrafında yerləşən meşədə, ailəvi istirahət edən zaman tanış olublar. Bu tanışlıqdan cəmi iki il sonra ailə qurublar.

Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı "Yeni Müsavat"a açıqlamasında bildirib ki, görüb, sevib, seçib evlənib: "Artıq 45 ildir ki, evliyəm və bu evlilikdən, min şükür ki, razıyam".

ADP sədri Sərdar Cəlaloğlu isə həyat yoldaşını Naxçıvanda xəstəxanada görüb bəyənib. Partiya sədri "Yeni Müsavat"a açıqlamasında bildirib ki, xanımı müəllimədir: "Özüm sevib, bəyənmişəm. 1979-cu ildən, yəni 45 ildir ki, ailə həyatı qurmuşuq. İzdivacımızdan 3 oğlum, bir qızım var". Onu da əlavə edək ki, partiya sədrinin övladlarının hamısı ailə həyatı qurub, çoxlu sayda nəvələri var.

Ümid Partiyasının sədri İqbal Ağazadə isə evliliyi barədə qətiyyən danışmaq istəmədiyini deyib: "Bunu mənimlə arvad bilsə, daha yaxşı olmazmı? Adətən bu tip məsələlərin ictimaiyyətdə müzakirə edilməsini istəməzdim".

Tanınmış jurnalist Seymur Verdizadə isə orta məktəb illərindən sevdiyi xanımla ailə həyatı qurub: "Bunun üçün də çox da axtarış aparıb, uzağa getməmişəm. Belə ki, orta məktəbdə 11 il bir yerdə oxuduğum qızla ailə həyatı qurmşam. 9-cu sinifdə hiss etdim ki, sinfimizdə oxuyan bir qıza qarşı biganə deyiləm. Bir müddətdən sonra qərarımı ona bildirdim və 11-ci sinfə qədər bu yeniyetməlik sevgimiz davam etdi. Artıq son sinifdə bütün sinif yoldaşlarımız bizim sevgimizdən xəbərdar idilər. Orta məktəbi bitirdikdən sonra təhsil almaq üçün Türkiyəyə getdim. Sevdiyim qız isə Bakıda ali məktəbə daxil oldu. Mən 5 il Türkiyədə təhsil aldım. 6 aydan bir görüşürdük, amma əsas o idi ki, bir-birimizdən arxayındıq. Geri döndükdən sonra xahiş etdim ki, məni bir il də gözləsin, çünki hərbi xidmətə getməli idim. Beləliklə vətən qarşısındakı borcumu da yerinə yetirdikdən sonra 1999-cu ilin noyabr ayında evləndik. Bir maraqlı məqamı da deyim ki, mən Türkiyədə təhsil alanda tələbə yoldaşlarım arasında Türkiyənin tanınmış millət vəkilləri, generallarının övladları, qızları var idi. Onlar mənə biganə deyildi. Bəlkə də pafoslu səslənəcək, amma mən həqiqətən öz əhdimdən dönmədim, gözümün ucu ilə belə heç bir xanıma baxmadım. Dostlarıma da məsləhət görürəm ki, öz sevgiləri uğrunda həmişə mübarizə aparsınlar, heç bir zaman öz əhdlərinə arxa çevirməsinlər".

Jurnalist evlilikdə valideynlərinin də izni olmasnın vacib olduğunu deyib: "Öz sevdiyim olsa da, valideyinlərimin də izni olaraq evlənmişəm. Rəhmətlik atam bizim sinif rəhbərimiz idi, 5-ci sinifdən 11-ci sinfə qədər dərs demişdi və hər ikimiz onun şagirdləri idik. Eyni kənddə yaşadığımızdan valideynlərimiz də bir-birilərini tanıyırdılar və bu izdivaca onların da xeyir-duası var idi. Bu izdivacdan iki övladımız var. Bir valideyn kimi həmişə demişəm ki, övladlarımın istəklərinə qarşı durmayacam, onlar kimi istəyib ailə həyatı qursalar mən onları dəstəkləyəcəm. Sevgi azaddır".

Xalq şairi Nəriman Həsənzadə də mərhum həyat yoldaşı Sara xanımla sevib evlənib. Artıq çoxlarına məlumdur ki, Sara xanım N.Həsənzadənin "Nabat xalanın çörəyi" adlı 3 hissəli povestindəki Fərəh obrazının prototipidir. Təəssüflə qeyd edək ki, şairin həyat yoldaşı 25 ildən çoxdur ki, dünyasını dəyişib...

❑ Xalidə GƏRAY

**Ölkədə bank sistemində vəziyyətin gündən-günə ağırlaşması Mərkəzi Bankı bu istiqamət üzrə qabaqlayıcı tədbirlər görməyə məcbur etdi. Baş bank isə problemi bankları ləğv etməklə çözmək yolunu seçdi. Nəticə olaraq, ölkədə 11 bank ləğv edilmə prosesindədir.**

# "Mərkəzi Bank dollarla kredit məsələsini həll etməlidir"

### Vahid Əhmədov: "Çox təəssüf ki, bəzi bankları bağlayırlar, bu, qəbuledilməz haldır..."

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü, deputat Vahid Əhmədov bildirdi ki, bankların birləşdirilməsi məsələsi uzun zaman gündəmdə olub: "Biz Milli Məclisdə dəfələrlə bildirmişik ki, 9.5 milyon əhali üçün 43 bankın olması doğru deyil. Bu baxımdan bankların bağlanması deyil, birləşdirilməsi və təmərküzləşmə prosesi getməlidir. Cənab prezident də hökumətin son müşavirələrində bu məsələyə toxunaraq bildirdi ki, bank sistemində islahatlar getməlidir. Ümumiyyətlə, bank sistemində islahatlar çoxdan aparılmalı idi. Çox təəssüf ki, biz bu məsələdə bir qədər gecikdik. Əsas məqsədimiz ondan ibarət idi ki, bank sistemində kredit faizləri aşağı salınsın. Çünki faizlər çox yüksəkdir. İnsanlar bu kreditləri alır, sonra isə qaytara bilmirlər. Vaxtı keçmiş kreditlərin isə məbləği 1.5 milyard manata gəlib çıxıb. Bunun da yeganə çıxış yolu kimi qərara gəldik ki, banklar birləşdirilməlidir. Mərkəzi



Bankın rəhbərliyi ilə müəyyən danışıqlarımız olub".

Ekspert bankların bağlanması ilə əlaqədar heç bir rəy irəli sürmədiklərini dedi: "Biz bankların bağlanılmasının tərəfdarı deyilik. Çünki banklar bağlanan zaman çox ciddi problemlər yaranır. Bu baxımdan bir daha qeyd edirəm ki, biz birləşmənin tərəfdarı olub bildirmişik ki, gəlin ölkədə təxminən 20-yə yaxın bank saxlayaq".

V. Əhmədova görə, hazırda bu proses gedir: "Ancaq çox təəssüf ki, bəzi bankları bağlayırlar. Bu qəbuledilməz haldır. Doğrudur, elə banklar var ki, heç nizamnamə kapitalı 50 milyon da deyil. O cümlədən orada müştərilərin də sayı çox azdır ki, belə bankları da birləşdirmək lazımdır. Yəni islahatın aparılmasının əsas məqsədi, iri kapitalı yığmaq, həmin bankların dövriyyə vəsaiti, nizamnamə kapitalı, kredit portfelinin yüksək olmasına çalışmaq olmalıdır. Belə olarsa, banklar insanlara kreditləri də aşağı faizlə verə bilərlər. İkincisi də Azərbaycan 2015-ci ildə iki dəfə devalvasiyaya gedib. Bu faktor da bank sisteminə ciddi təsir göstərib. Yəni bank sisteminin özünün də bu gün köməyə ehtiyacı var".

V. Əhmədov dollarla olan kreditlər məsələsinə də toxundu: "Ümumi razılıq belə olmuşdu ki, 10 min dollara qədər olan kreditlər köhnə məzənnə ilə (1 dollar = 1.05 AZN) verilsin. Buna heç kim də etiraz etmir. Mərkəzi Bankın rəhbərliyi bu məsələni həll etməlidir. Çünki burada əsas söhbət mənbədən gedir. Mərkəzi Bakın bu addımı atması üçün kifayət qədər ehtiyatı var. Burada təxminən 250-300 milyon manatdan söhbət gedir. Kreditlərin köhnə məzənnə ilə ödənilməsi barədə ümumi razılıq olsa da sonradan bunun nə üçün gecikdirilməsi barəsində məlumatımız yoxdur. Yəqin ki, bu məsələ üzərində müəyyən işlər aparılır".

❑ Əli RAİS

# Manata inam nə vaxt qayıdacaq?

### Ekspertlər bildirirlər ki, dövriyyədə manat artmasa, iqtisadiyyat iflic ola bilər...

**Manatla bağlı vəziyyətin sabitləşəcəyi rəsmi səviyyədə elan olunmaqdadır. Müstəqil ekspertlər isə fərqli düşünürlər. Dövlət başçısı İlham Əliyevin iqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirov AzTV-yə müsahibəsində bildirib ki, mart ayından etibarən Mərkəzi Bank və digər aidiyyəti qurumlar ölkədə manatın likvidliyinin artırılması istiqamətində çox ciddi qərarlar qəbul edəcək: "Çox yaxın müddətdə ölkədə manatın aktivliyi tamamilə bərpa olunacaq".**



Ekspert Əkrəm Həsənov isə musavat.com-a açıqlamasında bildirib ki, dövriyyədə manat artırılmasa, iqtisadiyyat iflic ola bilər: "Hazirda dövriyyədə manat azdır, buna görə də devalvasiya təhlükəsi yoxdur. Lakin bu, daim belə davam edə bilməz. Dövriyyədə manat artmasa, iqtisadiyyat iflic ola bilər. Buna görə də gözləyirəm ki, yaxında banklara Mərkəzi Bank manat kreditləri verəcək ki, iqtisadiyyatda canlanma olsun. Amma bu da öz növbəsində devalvasiyaya apara bilər. Yəni manatın dollara dəyişdirilməsi davam edə bilər. Bunun üçün də savadlı və düşünülmüş siyasət lazımdır ki, dövriyyəyə buraxılan manat təyinatı üzrə istifadə edilsin. Əks halda, yenə də kəskin devalvasiya ola bilər. Hər halda, Mərkəzi Bankın indiki rəhbərliyindən savadlı addımlar gözləmirəm. Manatın mövcud həcmini nəzərə alsaq, məzənnəni ümumən real hesab edirəm. Amma manat həcmi artsa və peşəkarsız səviyyədə olsa, dollar iki manatı ötə bilər".

Qeyd edək ki, bir müddət əvvəl Beynəlxalq Valyuta Fondu açıqlamasında manatla bağlı bildirib ki, ehtiyatda olan vəsaitin azaldığı və kənar şokların bərkidiyi şəraitdə Azərbaycanın Mərkəzi Bankı manatı devalvasiyaya uğratdı və idarə olunan üzən məzənnə rejiminə buraxdı: "Devalvasiya rəqabət qabiliyyətini artırmağa kömək etdi. Bundan sonra Mərkəzi Bank məzənnə çevikliyinin genişlənməsinə şərait yaratdı, ölkədən kapital axınlarının qarşısını almaq üçün tədbirlər gördü və bəzi problemli bankların birləşməsi və ləğvinə başladı. Eyni zamanda, hökumət fiskal siyasəti azalan neft gəlirləri şəraitinə uyğunlaşdırmağa başladı. Gəliryaratma istiqamətində yeni fiskal tədbirlərinin tətbiqi ilə yanaşı, keçmişdə neft qiymətinin kəskin artması nəticəsində həcmi sürətlə genişlənmiş dövlət investisiya qoyuluşu daralmağa başladı. Əlavə olaraq, aztəminatlı əhali təbəqələrini müdafiə etmək üçün yaşa görə pensiya və ünvanlı sosial yardımın məbləği artırıldı. Nəhayət, işgüzar mühiti yaxşılaşdırmaq üçün bir sıra prioritet struktur islahatları elan edildi".

Bəzi ekspertlər bildirirlər ki, insanlarda dollara olan kəskin tələbat da manatın ucuzlaşmasına səbəb olan amillərdəndir. Bildirilir ki, Mərkəzi Bankın rəsmi məzənnəni cüzi də olsa, aşağı salması müəyyən dərəcədə vəziyyətin stabil olduğunu sərgiləyən addımdır. Bu, psixoloji nöqteyi-nəzərindən doğru qərardır. Çünki əhalidəki ajiotajı sakitləşdirmək lazımdır. Bildirilir ki, hazırda yenə də problemlər var. Çünki çox hallarda banklar dollar alsalar da, satmaqdan imtina edirlər. Bu isə onu göstərir ki, manat öz normal axarına qədəm qoymayıb.

❑ RÖYA

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016

# Ailə münaqişəsi, isti "peraşki" qonaqlığı və Mehriban Zeynalova ilə söhbət...

## Əməkdaşımız "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin ofisindən yazır

**İqtisadi böhran QHT sektoruna da təsirsiz ötüşmədi. Bəzi QHT-lər ofis və maaş xərclərini belə ödəyə bilməyəcək duruma gəldi. "Yeni Müsavat" olaraq QHT-lərin yeni iqtisadi vəziyyətə necə uyğunlaşdıqlarını və hansı maliyyə sıxıntıları yaşadığını öyrənmək üçün onların ofislərinə baş çəkməyi qərara aldıq. Getdiyimiz ilk ünvan "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin ofisi oldu.**



***

Bura işçilər üçün ofis, çarəsiz qadınlar üçün isə bir sığınacaqdır. O səbəbdən də Axundov bağı ilə üzbəüz, ikimərtəbəli qədim binada yerləşən bu ev həm də isti bir yuvadır.

İş gününün son saatlarında ofisə üz tutsaq da bütün işçilər iş başında idi. Qapıya çatar-çatmaz qulağımıza qızğın mübahisə səsləri gəlir. İçəri girəndə məlum olur ki, az qala dalaşmaq həddində olan tərəflərdən biri ərindən qaçıb sığınacağa gələn gənc qadın, digəri isə onu geri qaytarmağa gələn anası, bacısı və əridir.

Bir neçə dəqiqə söhbətə qulaq müsafiri oluruq.

Qadın, ərinin ona və uşağına fiziki zorakılıq tətbiq etdiyini və o evə bir də qayıtmayacağını deyirdi. Ana və bacı isə gənc qadını nə olursa-olsun geri qayıtmağa məcbur edərək, el içində biabır olduqlarını əsas gətirirdilər. Ər isə etdiyi zorakılığın səbəblərini sadalayaraq, özünü haqlı çıxarmağa çalışırdı. Ailə görüşündə təşkilatın psixoloqu və hüquqşünası da iştirak edirdi.

Mətbəxdə səs-küylü idi. Sığınacaqdakı qadınlar burada peraşki bişirirdi. Dərdli qadınlar olsalar da, deyib-gülür, zarafat edirdilər. Bizi də bişirdikləri peraşkiyə qonaq etdilər. Deyirlər ki, bu, onların gündəlik məşğuliyyətidir. Hər gün peraşki bişirib yaxınlıqdakı dükanlara satır, müəyyən tələbatlarını ödəyirlər. Daha çox gələcəkləri ilə bağlı planlarını həyata keçirməyə çalışırlar. Əksəriyyəti erkən nikahın və ailə zorakılığının qurbanı olan bu qadınların sığınacaq yenidən həyata ümidlərini qaytarıb. Təşkilat sədri Mehriban Zeynalova ilə görüşürük. Bizi gülərüzlə qarşılayıb hal-əhval tutur. Daha sonra keçirik söhbətin sual-cavab hissəsinə...

***- Mehriban xanım, işləriniz necədir? Təşkilatın fəaliyyəti hazırda nədən ibarətdir?***

- Planlarımız çoxdur və dayanmadan davam edirik. Bizim digər təşkilatlardan üstün cəhətimiz odur ki, təşkilatın ofisi özümüzündür, bu baxımdan fasiləsiz işləyirik. Çətinliklə də olsa, sığınacağı saxlayırıq. Çünki qadınlara qarşı zorakılıqla mübarizədə sığınacaq çox önəmlidir. Müraciət edənlər də kifayət qədərdir. Qadınlara pulsuz hüquqi yardım da göstəririk. Alimentin alınması və ya atalığın müəyyən edilməsi, əmlak məsələləri və sairlə bağlı hüquqi yardım göstəririk. Həmçinin psixoloji yardım göstəririk, çətin vəziyyətdə olan qadınlara dəstək olmağa çalışırıq. Bütün QHT-lər bu istiqamətdə səfərbər olub fəaliyyət göstərməlidirlər ki, intihara meylli, zorakılıq qurbanı olan qadınlara yardım edə bilək. Biz rayonlara səfər planlaşdırırıq. Daxili İşlər Nazirliyinə müraciət etmişik və polislər arasında məişət zorakılığına qarşı mübarizə və qurbanlarla davranış formaları ilə bağlı təlimlər keçmək istəyirik. Bunu bütün rayonlarda davam etdirəcəyik. Bu könüllü həyata keçirilən bir işdir, hər hansı qrant layihəsi deyil.



***- Manatın devalvasiyası sizin işinizə necə təsir edib? Təşkilatın maliyyə durumu necədir?***

- Maliyyə vəziyyətimiz çətindir. Bizim elə də böyük məbləğdə layihələrimiz olmayıb. Hazırkı dövrdə isə yerli donorları gözləyirik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi layihə elan etməlidir. Orada iştirak etmək istəyirik. QHT Şurasına müraciət etmişik. Bu il həm də ötən il uğurla icra etdiyimiz layihəyə görə QHT Şurasından fəxri fərman almışıq. Biz hər bir layihəni yalnız vətəndaşların faydalanması naminə icra edirik. Hazırda 13 nəfər sığınacaqdadır. Onlardan 4-ü uşaqdır, qalanları qadınlardır. Qadınların buraya müraciət səbəbi fərqlidir, əksəriyyəti məişət zorakılığının qurbanlarıdır. Onlar potensial qurbanlardır. Sığınacaqdakıların da xərclərini qarşılamağa çalışırıq.

***- Sizdə necə, layihələrinizdə axsamalar, işçilər arasında ixtisar edilənlər varmı?***

- Bizdə "HİV-AİDS" layihəsində 12 işçimiz hazırda maaş ala bilmir. Onlar hələlik işləmirlər. Ancaq təşkilatdan uzaqlaşmayıblar. Bir çox məsələlərdə dəstək verirlər. Ehtimal edirik ki, o layihə davam edəcək. Bu Səhiyyə Nazirliyinin hökumət səviyyəsində keçən layihəsidir və çox vacib layihədir. Oraya həm vərəm, həm HİV və AİDS xəstəlikləri daxildir. Bu baxımdan ehtimal edirik ki, ölkələrarası çərçivə memorandumu olacaq, o memorandum imzalanandan sonra bu layihə davam edəcək. Digər sosial yönümlü layihələrdədə çox zaman iştirak edə bilmirik. Kimlərinsə bizdən xoşu gəlmir deyə bəzən layihəmizi dəstəkləmirlər. Bəzən hansısa nazirliklərdə problemlərin həllindən çox qeybət, dedi-qodu üstünlük təşkil edir.

***- Hansı donor fondlarla əməkdaşlıq edirsiniz?***

- Biz o qədər də çoxlu sayda fondla əməkdaşlıq etməmişik. Əvvəllər ABŞ səfirliyi, ATƏT, Qadınlar üçün Qlobal Fond, "Mamakeş" təşkilatları ilə əməkdaşlıq etmişik. Səhiyyə Nazirliyi, Qlobal Fond və biz birgə HİV- lə bağlı bir layihə həyata keçirmişik. Ancaq hazırda əsas istiqamət qadına qarşı zorakılıq mövzusudur. Əsas tərəfdaşımız isə QHT Şurasıdır. Hər il ora müraciət edirik.

***- Mehriban xanım, diqqət yetirdinizsə, devalvasiyadan sonra qadın qətlləri artdı, həm də həyat yoldaşları və yaxın qohumları tərəfindən... Bunun səbəbi nədir?***

- Mən hətta bu barədə bir status da yazmışdım ki, devalvasiya qadınların günahı deyil. Bunun üçün qadınları öldürmək olmaz. Devalvasiyadan dərhal sonra ən azı qadınlara qarşı 4-5 qətl hadisəsi baş verdi. Təbii ki, biz başa düşürük ki, insanlar çıxış yolu tapa bilmir, gərginlik keçirirlər, psixoz vəziyyətə düşürlər. Ona görə də, qadınlara təkcə psixi vəziyyətdən çıxmaq üçün yox, həm də özünümüdafiə üçün məsləhətlər də vermək lazımdır. Bu məsələlər bizi çox ciddi şəkildə narahat edir. Təlimlərimizə daha çox insanları cəlb etməyə çalışırıq ki, insanlar bu görüşlərdə iştirak etsin. Vətəndaş cəmiyyəti ölkənin istənilən gərgin vəziyyətində mobil şəkildə reaksiya verməli və vətəndaşların yanında olmalıdır. QHT olaraq bizim böhran proqramımız var ki, insanlara hansı şəkildə yardım edək ki, qətllər az olsun.

***- Siz hazırkı situasiyada QHT-lərin rolunu necə qiymətləndirirsiniz?***

- Bəzi QHT-lər hər zaman mövsümi xarakterli olub, ancaq layihədən layihəyə işləyiblər. Sistemli şəkildə işləyən az təşkilat var. Bu reallıqdır. Əslində, bu QHT üçün mənfi haldır. Bu donor axtarışına çıxmağa gətirib çıxarır. Yəni sən özünü donor üçün cəlbedici etməlisən. Donor üçün o zaman cəlbedici olursan ki, sən özün həmin fəaliyyətlə davamlı məşğul olursan. Əgər sən donorda maraq oyada bilirsənsə, o özü axtarıb səni tapır. Hazırda QHT Şurasından başqa real bir donor qalmayıb. İş adamları, biznesmenlər də donor ola bilər. Ancaq Azərbaycanda iş adamlarında hələ ki, vətəndaş şüuru formalaşmayıb, daha çox biznes maraqları baxımından məsələyə yanaşırlar. Çox az hallarda hansısa layihəyə dəstək verirlər. Bəzən korporativ sosial məsuliyyət layihələri olub. Lakin biz o müsabiqələrdə iştirak edə bilməmişik. Mən həmin müsabiqələrə kölgə salmaq istəmirəm, ola bilsin, bu, məndə alınmayıb.

***- Hansı dövlət qurumları ilə əməkdaşlıq edirsiniz? Onların vətəndaş cəmiyyətinə dəstəyi yetərlidirmi?***

- Ən çox Daxili İşlər Nazirliyi ilə əməkdaşlıq edirik. Bu qurum şəffafdır, təklifləri qəbul edirlər, dəstək verirlər, istənilən müraciəti cavabsız qoymurlar. Səhiyyə Nazirliyi çox yaxşı işləyir. Buradan nə qədər adam yollayırıqsa, hamısını pulsuz, müayinə edirlər, əməliyyat edirlər. Müraciətlərimiz cavabsız qalmır.

Son olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etmişik. Onlardan cavab gözləyirik. Akkreditasiyadan keçmişik. Onlar tərəfindən də sığınacağımıza çətin vəziyyətdə olan qadınlar yönləndirilir. İndiki dövrdə hesab edirəm ki, sığınacaq və yardım istəyən daha çox olacaq. Psixoloji yardıma ehtiyac artacaq. İnsanların maddi imkanı olmadığına görə pulsuz xidmət göstərən təşkilatlar gündəmdə olacaq. Bu baxımdan daha geniş çevrədə işləməyi planlaşdırırıq. 11 700 boşanma var, evdə qadınlar öldürülür, erkən nikahların sayı artır, hər gün ana-uşaq ölümləri olur. Bu istiqamətdə işləmək üçün bizə dövlət qurumlarının, donorların dəstəyi lazımdır.



***- Dövlət qurumlarının ailə, qadın, uşaq məsələləri ilə gördükləri işləri yetərli sayırsınızmı?***

- Problem ondan ibarətdir ki, bəzən görülən işlər haqqında da məlumat tapmaqda çətinlik çəkirik. Düzdür, ƏƏSMN saytında layihələrlə bağlı müəyyən məlumatlar olur, DİN-in saytında da məlumatlar olur. Lakin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti haqqında məlumatları mən tapa bilmirəm. Bundan başqa, ƏƏSMN-in saytında qadınlarla bağlı müəyyən bir bölmə yoxdur ki, oradan baxaq ki, nazirlik qadınlara yönəlik hansı fəaliyyət göstərib. Çox istərdim ki, indiki məqamda sosial işçilər aktivləşsin. Buna bizim kifayət qədər imkanımız var. Bu sahədə könüllülər də var.

Qadınların kiçik biznesə cəlb edilməsi ilə bağlı Sahibkarlıq Konfederasiyası ciddi şəkildə işlər görməlidir. Hazırda buna çox ehtiyac var. Adətən böhran dövrlərində güc daha çox qadınların üzərinə düşür. 90-cı illərdə böhran zamanı ölkədən qadın axını başladı. Əxlaq normalarına uyğun olmayan həyat tərzi keçirən qadınların sayı artdı. Bu iqtisadi böhrandan mənəvi dəyərlərin müsbətə dəyişməsi yönündə də istifadə etmək olar. Böhran bəzən ailələrin birləşməsinə və bir-birinə daha çox güvənməsinə, güzəşt etməsinə də gətirib çıxara bilər. Proseslərə bu cür baxa bilmək və müsbət yöndə dəyişmək üçün yaxşı vətəndaş cəmiyyəti olmalıdır ki, ortaya düşsün və bu barədə iş görməyə gücü çatsın. Bunun üçün də QHT-lərə donor dəstəyi lazımdır.

***- Ötən il sizə qarşı bir kampaniya getdi, adınız insan alverində hallandı. O prosesin sonu necə oldu?***

- Bu proses hələ də davam edir. Orada bəzi nüanslar oldu. Elə oldu ki, məktub bizə gəlməden məhkəmə qərar çıxartmışdı. Təsəvvür edin ki, Ali Məhkəməyə qədər iş getdi və biz onu geri bərpa etməyə çalışdıq. Proses hələ də, davam edir. Mən geri çəkilmək niyyətində deyiləm.

***

Söhbətimizi təşkilatın hüquqşünası Məlahət Nəbiyeva ilə davam edirik. 6 ildir təşkilatda çalışan Məlahət işindən məmnun olduğunu deyir: "Çox çətin işdir, ancaq həm də bununla cəmiyyət üçün mənəvi borcumu yerinə yetirirəm. Zorakılığa məruz qalmış, hüquqları tapdalanmış qadınların məhkəmələrində çıxıb onları təmənnasız müdafiə etmək bir qadın kimi mənim üçün çox müqəddəs işdir. Elə hadisələr olur ki, heç zaman görmədiyim situasiyalarla qarşılaşıram".

"Təmiz Dünya" qəhrəmanları ilə sağollaşıb təşkilatın ofisindən ayrılırıq. Artıq saat 19:00-u göstərir. Onlar üçün isə iş hələ də bitməyib. Yuxarıda qeyd etdiyimiz ailənin probleminin müzakirəsi davam edir. Qadın zorakılığa məruz qaldığı evə qayıtmamaqda israrlıdır. Ailə üzvləri arasında razılaşma əldə etmək hələ də mümkün olmayıb...

❑ **Nərgiz LİFTİYEVA**
**Foto: Məğrur MƏRD**

# Xanım müğənnilərə irad: "Əri ilə fotosunu paylaşır, sonra da deyir ki..."

## Media əhli şou-biznes əhli haqda nə düşünür?

**Son zamanlar şou-biznes əhli ilə jurnalistlərin arasında tez-tez qalmaqal yaşanır. Buna səbəb isə sənətçilərin verdiyi müsahibələri təkzib etməsidir. Onlar jurnalistləri yalan məlumat yaymaqda və ya müsahibəni istədikləri kimi montaj etməkdə ittiham edirlər.**

Son olaraq, İlhamə Quliyeva həmkarı Aygün Kazımova haqda səsləndirdiyi təhqiramiz fikirlərdən imtina etdi və bildirdi ki, jurnalist onun adından açıqlama yazıb. Ötən həftə isə rəqqasə Fatimə Fətəliyeva Aygün Kazımova haqda verdiyi müsahibəni dandı və qeyd etdi ki, müsahibə yanlış anlaşılacaq dərəcədə montaj olunub.

Musavat.com yaşanan durumla bağlı jurnalistlər arasında sorğu keçirib və onların şou əhlinin bu hərəkətinə olan münasibətini öyrənib.

Primetime.az saytının baş redaktoru Şahin Cavadsoy bildirdi ki, müğənnilərə onu ittiham etməyə şərait yaratmır: "1999-cu ildən bəri maqazin dünyasındayam. Müğənnilər haqda ən "partlayış"lı xəbərlər yayımlayan jurnalistlərdən biriyəm. Müğənnilər jurnalistləri iki yerə bölür: televiziya və onlayn media... Bir dönəm var idi ki, müğənnilər televiziya jurnalistləri ilə münasibət qurmağa maraqlı idilər. Onda sosial şəbəkələr yox idi, efirdə dediklərini danmırdılar. Amma o dediklərini qəzetlərdə yazanda məsələni böyüdürdülər. Buna görə dəfələrlə başım ağrıyıb, hətta məhkəmələrə gedib çıxmışam. Azərbaycan müğənnilərinin çoxunda özünə əminsizlik var. Dedikləri sözün arxasında dayana bilmirlər. Olub ki, müğənni mənə verdiyi açıqlamanı danıb. Səs yazısını üzə çıxarmışam, deyib ki, "mən o mənada deməmişəm". Bizdə çox az müğənnilər açıqlama verməyi bacarır. Hazırda sənət adamları məlumatı sosial şəbəkə vasitəsilə ötürür. Ölkəmizdə vətəndaş jurnalistikası inkişaf edir. Bəzən sənət adamları dedikləri sözü gündəmə gəlmək üçün təkzib edirlər. Bunun dəfələrlə şahid olmuşuq. Özləri hadisə yaradırlar, sonra da təkzib edirlər. Sənətindən asılı olmayaraq, hər bir insan dediyi sözün arxasında dayanmalıdır. Dayana bilmirsə, bu, onun öz problemidir".



Axşam.az saytının şou yazarı Sərvər Mehdiyev qeyd etdi ki, onları ittiham edən sənət adamlarının qarşısına daim fakt qoyurlar: "Dəfələrlə olub ki, müğənnilər dedikləri sözü danıblar. Son vaxtlar isə bu cür hallar lap çoxalıb. Ona görə də ən yaxşı vasitə müğənnilərdən müsahibə alanda səslərini yazmaqdır. Bəzən aparıcılar müğənniləri verilişə dəvət edir, onlardan saytlarda yazılan hansısa məsələ ilə bağlı fikir soruşurlar. Müğənni bunu danır. Nəticədə jurnalist yalançı çıxır. Aparıcılarımız həmin an jurnalistlə əlaqə saxlamalı, məsələni dəqiqləşdirməlidir. Kiminsə yazdığını, dediyini hansısa jurnalistin təkzib alıb, yazması düz deyil. Bəs mən sübut etsəm ki, düz yazmışam nə olacaq? Dəfələrlə olub ki, tanınmışlar haqqında efirdə dedikləri sözlərlə bağlı yazı hazırlamışıq. Sonra başlayıb, "İnstaqram" səhifəsində yazını paylaşıb, inkar etməyə... Videosunu kəsib yazının altına atırsan ki, sübut edəsən. Onda da yığıb təhdid etməyə başlayırlar. Hətta sosial şəbəkədə yazdıqları statusun altına cavabını yazanda silib, qara siyahıya atırlar. Müğənnilər başa düşümürlər ki, saytlar onlardan 1 ay yazmasa, unudulacaqlar. Efirlər də saytlarda fəal olan müğənniləri verilişə qonaq çağırır. Efir qadağası olan da sözünü saytlarda deyir. Efirə buraxılan kimi başlayır, saytları pisləməyə... Düzdür, insan müsahibə zamanı hisslərini cilovlamayıb ürəyini açır, danışır. Jurnalist də bunu yazır. Amma sonra çıxıb niyə danır? Efirlərə gedib başlayırlar ki, şəxsi həyatımızdan yazırlar. Sənin qapalı tutduğun şəxsi həyatından kim yaza bilər? Əriylə fotosunu 10-20-30 min izləyicisi olan sosial şəbəkədə paylaşıb, sonra deyirlər niyə yazdılar? Şou-biznesdə elə müğənnilərimiz var ki, heç vaxt ailələrini gündəmə gətirməyiblər. Bu günə qədərdə heç bir jurnalist onların şəxsi həyatına müdaxilə etməyib. Biz də digər jurnalist həmkarlarımız kimi müğənnilərin bu cür addımları ilə qarşılaşmışıq, amma hər zaman əlimizdə sübutla qarşılarına çıxmışıq və səsi yayımlayacağımızı demişik. Onda da başlayıblar yalvarmağa ki, etməyin. Hətta başqa bir tanınmışı araya minnətçi salıblar ki, bağışlasınlar. Müğənni, idmançı, aparıcı, aktyor, aktrisa dediyini danıb, jurnalisti yalançı etməklə özünü gülünc vəziyyətinə qoyur. Ya bu sözü demə, ya da dedikdən sonra çıxıb təkzib edib, özünü pis vəziyyətdə qoyma".

Publika.az saytının şou yazarı İsa Şükürov isə jurnalistləri onlara hörmətsizlik edən şou əhlinə qarşı birləşməyi təklif etdi: "Hər bir kəs dediyi sözün yükünü dərk etməlidir. Çünki söz ağızdan çıxdısa, o artıq sənin deyil. Xüsusilə də, bu sözü deyən ictimai fiqurdursa, 100 ölçüb, 1 biçməlidir. Təəssüf ki, yerli şou-biznes nümayəndələri qələm əhli ilə söhbətləşərkən, açıqlama, müsahibə verərkən sanki özlərində olmurlar. Ağıllarına nə gəldi, danışırlar. Bu isə çox vaxt onların savadsızlığı ilə əlaqədar olur. Çünki savadlı insan ən azından dediyi sözlərə, işlətdiyi fikrə diqqət edər. Bizdə isə bu, bir qədər qəliz məsələdir. Sözünü danan müğənnilər isə qarşı tərəfdən qorxduğu üçün geri çəkilir və günahkar jurnalistləri bilir. Əgər qorxacağınız, çəkinəcəyiniz yer varsa, ümumiyyətlə, susun. Bəs sonda ittiham etdiyiniz jurnalist sizin səs yazınızı ictimailəşdirsə, utanmayacaqsınız? Belə də ki, çətin utanasınız. Utanmaq üçün adamda üz gərək... Mən çox istərdim ki, jurnalistlər birləşsin və belə müğənniləri 2 ay müddətinə boykot etsin. Onların heç bir açıqlamaları, heç bir işi haqda xəbər yazmasın. Belə olduğu halda şou nümayəndələri də kiminlə nə danışdıqlarına diqqət edərlər".

❑ Könül İbrahim

Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Başsağlığı

**Müsavat Partiyası Nizami Rayon Təşkilatı Sidqi Allahyarova qardaşı Dünyaminin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

# Yeyib-içdikdən sonra meşəyə aparıb öldürdülər

**Abşeronda beş ay əvvəl qətl törədən şəxslər tutulublar. Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərindən APA-ya daxil olan birgə məlumatda qeyd olunur ki, Polis və prokurorluq orqanları əməkdaşları tərəfindən həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində ötən il Abşeron rayonunda qeyri-aşkar şəraitdə törədilmiş qətlin üstü açılıb.**

Belə ki, ötən il sentyabrın 7-də Abşeron rayonunun Xocəsən qəsəbəsində üzərində zorakılıq əlamətləri olan 25-30 yaşlı kişi meyiti aşkar edilib. Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. İstintaq-əməliyyat tədbirləri ilə qətlə yetirilənin Kürdəmir rayon sakini, 1982-ci il təvəllüdlü Xanlar Nadirov olması müəyyən edilib.

İstintaqla həmçinin müəyyən edilib ki, Lənkəran rayon sakini 1995-ci il təvəllüdlü Vüsal Mirzəyev, Kürdəmir rayon sakini 1987-ci il təvəllüdlü Vüsal Qədiyev və Lerik rayon sakini 1982-ci il təvəllüdlü Nizami İsmayılov Xanlar Nadirovla birlikdə 6 sentyabr 2015-ci il tarixdə, saat 22 radələrində Sulutəpə dairəsi yaxınlığındakı kafeyə gedərək orada yeyib-içiblər. Yeyib-içdikdən sonra onların arasında mübahisə yaranıb və yuxarıda adları çəkilən şəxslər X. Nadirovu yaxınlıqdakı meşə massivinə apararaq orada qətlə yetiriblər.

Cinayətin Vüsal Mirzəyev, Vüsal Qədiyev və Nizami İsmayılov tərəfindən törədilməsində kifayət qədər əsaslı şübhələr yarandığından onlar tutularaq istintaqa cəlb olunublar. Hazırda istintaq tədbirləri davam etdirilir.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 29 (6350) 8 fevral 2016

# 2020-ci ilə qədər intiharların sayı kritik həddə çatacaq

## Dünyada yaşlılar intihar edir, Azərbaycanda isə kasıb gənclər

**Azərbaycan insanı bu kimi hadisələri bəzən film kimi izləyir. Adamın biri körpüyə çıxır, aşağıdakılar telefon əllərində olanları çəkirlər. İnsanlar kasıblığın girdabında boğulur, çıxış yolu üçün çarə tapmır və intiharı seçir. Əslində isə intihar insanın düşünülmüş şəkildə özünün ölümünə yol açma aksiyası olaraq tanınır. İntihar haqqında ən geniş yayılmış fikir bundan ibarətdir ki, insanlar öhdəsindən gələ bilmədikləri duyğuları düzənləmək üçün intiharı yeganə çıxış yolu olaraq görürlər.**



İntiharın səbəbləri kimi daha çox cinsi, sosial-iqtisadi durum pozuntuları, ata-ana münaqişələri, ixtilaf, immiqrasiya, psixi pozuntular, təzyiqə meyillilik və düşünmə (fikirləşə bilmə) pozuntuları göstərilir. Son illərdə uşaqların ölümü ilə bağlı aparılmış tədqiqatlar uşaqların ölümün həqiqi mənasını qavraya bilməməsinin də intihar cəhdi üçün risk faktoru ola biləcəyini irəli sürür.

Həmçinin, depressiyanın da yetkin insanlarda olduğu kimi, gənclərdə də vacib risk faktoru olduğu vurğulanır.

İntihar edən şəxslərin 90%-i depressiya xəstəsidir. Depressiya xəstələrinin 15%-i intihara cəhd nəticəsində həyatlarını itirirlər. Problemləri həll etmə bacarığının kifayətsizliyi, stress və ümidsizlik hissləri ilə intiharın yaxın əlaqəsi olduğu göstərilir. Öz gücünə uyğun olmayan məqsədlər qoymaq, müvəffəqiyyət qazana bilmədikdə tənqidə məruz qalmağa tab gətirə bilməmək kimi səbəblər uşaq və gəncləri intihar cəhdlərinə yönəltməkdədir.

Ölkəmizdə də son dövrlərdə yaşanan intihar səbəblərindən biri kimi öz torpaqlarımızdan məcburi köçürülmə amilini də qeyd edə bilərik. Son dövrlərdə ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliklər daha da dözülməz hala gəlmişdir. Öz dədə-baba yurdundan, böyüdüyü torpaqdan ayrı düşmək, gözü qarşısında uşaqların, qocaların, qadınların, kişilərin min cür işgəncə və əziyyətlə öldürülməsi qaçqın və məcburi köçkünləri bir çoxunu intihara vadar etmişdir.

Bütün bu deyilənləri ümumiləşdirərək intiharın səbəblərini aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Psixi xəstəliklər
2. Sosial səbəblər
3. Psixoloji səbəblər
4. Bioloji səbəblər
5. Genetik yaxınlıq
6. Fiziki xəstəliklər

İntihara səbəb olan psixi problemlər bunlardır:

**1. Depressiya**

2. Şizofreniya - intihar edənlərin 10%-də şizofreniya müşahidə olunur.

3. Spirtli içkilərdən istifadə

4. Narkotik maddələrdən asılılıq

5. Şəxsiyyət pozuntusu

6. Yüksək həyəcanlılıq

**2. Sosial səbəblər**

**Ailə bağları zəifdirsə, intihar da çoxdur**

Cəmiyyətin sosial xarakteri ilə bağlı olaraq intihar faizi də ölkədən-ölkəyə fərqlilik göstərir. Ailə bağları zəif olan ölkələrdə intihar faizi daha çoxdur. Suisidlərin ilk təsnifatlarından biri fransız psixoloqu Emil Dürkheymə məxsusdur. O, sosial faktorların rolunu əsas götürərək, intiharın aşağıdakı formalarını ayırd edib:

- eqoistik intihar - öz sosial qrupu ilə vəhdət hissini itirmiş və ona görə də ailəvi, dini, ictimai nəzarətə tabe olmayan şəxslər tərəfindən törədilir.

- anomik intihar - sosial və siyasi dəyişikliklər dövründə cəmiyyətlə sosial inteqrasiyası pozulmuş şəxslərdə təsadüf edilir. Sosial və iqtisadi böhranlarda cəmiyyət içində intihar faizi yüksəlir. Məsələn, hər iki dünya müharibəsində bütün Avropa ölkələrində intihar faizi digər dövrlərə görə artıb.

- alturistik intihar - öz həyatını sosial motivlər naminə qurban verən və bununla yüksək dərəcədə qrup identifikasiyasına malik şəxslərdə təsadüf edir.

Bundan əlavə, insanın həyatla hesablaşması məqsədi daşıyan sadə intihar, özünə qəsd edərkən yaxınlarını da özü ilə aparmaq tendensiyalı şəxslərdə genişlənmiş intihar (məsələn, intihardan əvvəl azyaşlı uşağını guya əzabdan qurtarmaq üçün öldürmüş qadının hərəkəti), eyni zamanda birgə intihar etmək üçün razılığa gəlmiş qruplarda təsadüf edilən kollektiv intihar (belə hallar dini təriqət nümayəndələrində və psixiatriya xəstəxanalarının pasiyentlərində rast gəlinir) növləri ayırd edilir.

**3. Psixoloji səbəblər**

Şəxsi yaxınlıq da intihar ehtimalını artırır.

**4. Bioloji yaxınlıq**

Beyindəki serotonin maddəsinin ("xoşbəxtlik hormonu" -red.) azalması intihar ehtimalını artırır.

**5. Ailəvi yaxınlıq**

Ailədə intihar edən qan bağı olan yaxının olması insanlarda intihar etmə ehtimalını artırır.

**6. Fiziki xəstəliklər**

Xərçəng, ürək xəstəliyi, AİDS kimi xəstəliklərə tutulan insanlarda intihar ehtimalını normal insana nisbətən daha çoxdur.

**Diqqət! Adam bunu edirsə, intihara hazırlaşır deməkdir..**

Yaxşı, bəs bir insanın intihara hazırlaşdığı necə hiss edilir? Bunu ifadə etmənin hansı yolları var. İntiharların çoxunda bu aksiyadan öncə xəbərdarlıq xarakterli bəzi əlamətlər özünü göstərir. Bu əlamətlər aşağıdakılardır:

- adam fasiləsiz olaraq ölümdən bəhs edir, düşüncələri bununla məşğuldur;

- adamda klinik səviyyədə depressiya mövcuddursa;

- adam ölümlə sonuclanacağı hiss edilən riskli davranışlar sərgiləyirsə. Məsələn, həyati əhəmiyyətli dərmanları qəbul etməkdən imtina edirsə, sürətli maşın sürürsə, bir sözlə, həyatı riskə atırsa;

- adam öncədən maraqlandığı aksiyalardan uzaqda dayanmağa başlayıbsa;

- adam özünü çarəsiz, yalnız və günahkar hiss etdiyini ifadə edirsə;

- adam son dönəmlərdə olduqca kefsiz, istəksiz, qayğılı olduğu halda anidən sevincli və ya sakit bir xarakterə bürünürsə;

- adam intihar etmək istəyini açıq şəkildə bildirirsə;

- adam vida etmək üzrə müəyyən ziyarətlər edirsə, cəhdləri təkrarlayırsa.

**Dünyada daha çox yaşlılar intihar edir, bizdə isə cavanlar**

Son 10 ildə dünyanın dörd bir tərəfindəki intihar hadisələrini araşdıran DST-nın hazırladığı ilk qlobal intiharın qarşısını alma hesabatına görə, intiharlar təxminən aşağı səviyyədə gəliri olan ölkələrdə yaşandığı bildirilib. Ən çox intihar hadisələri 70 yaşdan yuxarı insanlar arasında qeydə alınıb. 15-29 arası yaş qruplarında isə ikinci ən əhəmiyyətli ölüm səbəbinə çevrilib. İntihar xüsusilə 50 yaşdan yuxarı kişilər arasında daha çox yayılıb. Gəlir səviyyəsi yüksək ölkələrdə kişilər arasındakı intiharlar, qadınlara nisbətən üç qat artıqdır.

Zəhər içmək, atəşli silahla özünə qəsd etmək və asmaq, ən geniş yayılan intihar üsullarıdır. Avstraliya, Yeni Zelandiya, Kanada, Yaponiya, Avropa Birliyinə üzv olan ölkələr və AB-da aparılan araşdırmalar odlu silahlar və zəhərli maddələrin çıxışının məhdudlaşması ilə intihar hadisələrinin qarşısının qismən azaldığını göstərib.

DST-nın müdİri Margaret Çan "İntihar çox uzun müddətdir tabu qəbul edilən bir səhhət problemidir. Bu problemin həlli üçün bütün ölkələrə aksiya keçirmələri çağırışını edirik" - deyib. 2020-ci ilə qədər intihar hadisələrinin sayını azaltmağı qarşısına məqsəd qoyan DS hazırda sadəcə, 28 ölkənin milli intiharın qarşısının alınma strategiyasında olduğuna işarə edib.

DST ağıl xəstəlikləri üçün istifadə edilən kütləvi hərəkatların tibbi yardım almasına əngəl olduğuna və intihar hadisələrinin artırdığına diqqət çəkərək kütləvi maarifləndirmə kampaniyalarının əhəmiyyətini vurğulayıb.

**Dinlə intihar arasında hansı bağlılıq var?**

Dünya Psixiatriya Assosiasiyası XXI əsri "depressiya və intiharlar əsri" adlandırıb. 2020-ci ildə intiharların sayının 500 minə qədər artacağını proqnozlaşdırıb. Ümumdünya Səhiyyə Təşkilatının apardığı tədqiqatlara görə, hər il təxminən 60 milyon insan intihara cəhd edir. Nəticədə, hər il bir milyon insan həyatını itirir. Onlardan 63 faizi kişilər, 37 faizi isə qadınlardır. İntihar edənlərin bir faizi Azərbaycanın payına düşür. Litvada hər yüz min nəfərdən 42-si, Rusiyada 36-sı, Qazaxıstanda 30-u, Macarıstanda 26-sı, Latviya və Sloveniyada 26-sı, Ukraynada isə 25-i intihar edərək həyatlarına son verir.

İslam ölkələrində intihar azdır, amma...

Din və intiharlar arasında asılılıq da var. Əksər islam ölkələrində intihar sayı, demək olar ki, sıfıra bərabərdir. Əhalisi daha çox xristianlığa və ya induizmə tapınan ölkələrdə isə intihar səviyyəsi yetərincə yüksəkdir. Xristian dövlətlərindən hər 100 min əhaliyə 11,2 intihar halı, Hindistanda isə uyğun olaraq 9,6 intihar halı düşür. Buddist ölkələrdə bu göstərici daha yüksəkdir - 100 min adama 17,6 intihar halı qeydə alınır. Maraqlıdır ki, Çin kimi ateist dövlətlərdə bu göstərici 25,6-ya bərabərdir. Xristian və buddistlər arasında özünü öldürən kişilərin sayı özünü öldürən qadınlardan 3,5 dəfə çoxdur, müsəlman və induistlərdə isə bu fərq 3 dəfə aşağıdır.

Ancaq dini inanclar heç də mütləq meyar deyil. Katolik İrlandiyada intihar halı katolik İtaliyaya baxanda üç dəfə çoxdur. Protestantların çox olduğu Böyük Britaniyada isə keçmiş müstəmləkəsi Avstraliyaya baxanda iki dəfə yüksəkdir. Bütün bu ölkələr həyat səviyyəsinə və başqa göstəricilərinə görə bərabərdirlər.

**Bəzi intiharlar blef xarakteri daşıyır, bəzisi isə...**

Ekspertlər hesab edir ki, bəzi intihar üsulları sırf blef xarakteri daşıyır. Məqsəd şou göstərmək, kimlərisə qorxutmaq, duyğu sömürüsü etməkdir. Amma bu günə qədər tarixə keçmiş ən populyar intihar üsulları aşağıdakılardır:

maşınla uçma/qəza - sürücü sürətlə maşını sərt bir şəkildə harasa vurur və ya yüksək bir uçurumdan aşağı atır. Yol qəzası ilə intihar arasındakı fərqi tapa bilmək üçün kiçik bir araşdırmaya ehtiyac duyulur ki, bu da polislərin işidir.

Özünü yandırma. Adətən hökumətə və ya rejimə etiraz olaraq həyata keçirilir. Bu proses bir neçə dəqiqədən bir neçə günə qədər uzana bilər. Neyçün ki, çox acılı prosesdir. Əgər adam özünü digər şəxslərin də olduğu bir yerdə yandırmağa çalışsa, ona yardım etmək istəyənlərin də həyatına təhlükə yarana bilər. Boğulma, şok və yanıqlardan asılı olaraq ölüm gerçəkləşə bilər. Bu intihar cəhdi uğursuzluqla nəticələnən şəxs də ömür boyu yanıqlarla yaşamaq zorunda qala bilər.

Elektrik cərəyanı ilə intihar. İnsan özünə elektrik şoku verərək öldürmək istəyə bilər. Lazımi miqdarda cərəyan dəriyə nüfuz etdikdən sonra daxili orqanlara çatır. Bu intihar üsulunda bir qayda olaraq sudan istifadə edilir, çünki su yaxşı cərəyan ötürücüsü sayılır.

Hündür yerdən özünü atmaq. Körpüdən və ya yüksək bir binanın üstündən hoppanan adamın dərisi və daxili orqanları parçalanır. Əgər adam alçaq bir körpüdən suya hoppanırsa, boğularaq ölmə ehtimalı daha çoxdur. Yüksək sayılan bir binanın təpəsindən hoppanmaq birdəfəlik çıxış yolu kimi görünə bilər. Elm sübut edib ki, göydələnin təpəsindən hoppanan insanın ürəyi yarı yolda artıq dayanmış olur.

Gəminin arxa hissəsindən suya tullanmaq. Açıq dənizlərdə üzən gəmilərin arxa tərəfindən suya tullanma da dəqiq ölümlə nəticələnir. Belə ki, boğulma və ani bədən istiliyinin dəyişməsi insanı ölümə aparır. Paralel olaraq deyək ki, gəminin qabaq hissəsindən suya tullanan intiharçının da ölməsi mümkündü.

Bir maşının, qatarın arxasından və ya qabağına hoppanmaq. Sürətlə hərəkət edən maşının qabağına hoppanan adam zərbə nəticəsində həyatını itirir. Eynilə sürətlə hərəkət edən qatardan, maşından yerə hoppananların da ölmə ehtimalı var. Amma belələrinin şikəst qalma ehtimalı daha böyükdür.

Asılma. Bu intihar yolu nəticəsində boyun qırılır və ya insan boğulur. Bu zaman qurbanın onurğa beyni sıxılaraq qırılır, nəfəsi kəsilir və təxminən 2-3 dəqiqə ərzində bioloji ölüm baş verir. Onurğa beyni sıxılmasa belə, insanın xilas olması çox çətindir. Lap xilas olsa da, sinirləri zərər görəcəyi üçün ömür boyu iflic vəziyyətində yaşaya bilər.

Silahdan atəş, xarakiri və yüksək dozada spirt.

Zərərli maddələrin inyeksiyası. Narkotik kimi zərərli maddələrin maksimum dozada bədənə inyeksiya edilməsi ilk növbədə infarkta səbəb olur və ölümlə sonuclanır. İstifadə olunan maddənin keyfiyyətinə, inyeksiya olunan vücud bölgəsinə görə ölüm müddəti arta və ya azala bilər. Bundan başqa, boş bir şprisdəki havanın damar daxilinə qüvvətlə göndərilməsi də şok bir ölümlə nəticələnə bilər.

Böyük dozada dərman qəbulu. Yuxu dərmanlarının, antidepressantların və ya ağrı kəsicilərinin də ifrat miqdarda qəbulu insanı öldürə bilər. Vaxtında müdaxilə edilərsə, mədə yuma kimi müxtəlif yöntəmlərlə insan həyatı xilas edilə bilər, amma bu, daxili orqanlarda qalıcı bir iz qoya bilər. Adətən bir-iki günlük yuxulu vəziyyətdən sonra xəstənin sağalması mümkündür.

Zəhərlənmək. İnsan zəhər qəbul edərək özünü öldürə bilər. Yüksək dozada dərman alınarkən çıxan nəticəyə bənzəyir. Zəhərin təsiri keyfiyyətinə və istifadə edənə görə dəyişir. Tarix boyunca liderləri öldürmək üçün xəfiyyələr çox tez-tez bu üsuldan istifadə ediblər.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 29 (6350) 8 fevral 2016



## Şam ağacı insultu müalicə edir

**Təzə şam ağacı qozaları qədim zamanlardan sinqa (diş əti xəstəliyi), vərəm, bronxit, soyuqdəymə, oynaqlar xəstəlikləri zamanı geniş istifadə olunub.**

Saglamolun.az bildirir ki, soyuqdəymə, bronxit, vəzərəm zamanı təzə şam qozaları dəmlənilir və içilir. Oynaqlar xəstəlikləri zamanı dəmləmə həm içilir, həm də islatmalar şəklində istifadə olunur - dəmləmədə pambıq parça isladılır və xəstə oynağın üzərinə qoyulur.

Şam qozası fitonsid maddələrlə olduqca zəngindir. Bu maddələr orqanizmə güclü iltihab və mikrobəleyhinə təsir edir, immun sistemini gücləndirir.

Bundan əlavə şam ağacının qozalarında çox nadir və qiymətli "tanin" maddələri var. Bu maddələr insult zamanı beyin hüceyrələrinin ölməsini xeyli ləngidir.

Amerika alimləri siçanlar üzərində eksperimentlər apарıblar. Eksperimentlər zamanı məlum olub ki, şam ağacı qozasının tərkibində olan tanin maddələrini qəbul edən siçanlarda bu maddələri qəbul etməyən siçanlarla müqayisədə insultdan sonra beyin hüceyrələrinin xeyli hissəsi salamat qalıb.

Şam ağacı qozasından dəmləmə hazırlamaq üçün 5 təzə qoza götürülür, yaxşı yuyulur, doğranılır, üzərinə 1/2 l qaynar su əlavə olunur, vam odda 5 dəqiqə ərzində qızdırılır. Dəmləməni soyudun və gün ərzində 2 dəfə stəkanın 1/4 hissəsi olmaqla qəbul edin.

Belə dəmləməni insultdan sonra və insultun profilaktikası məqsədi ilə, bronxit, soyuqdəymə zamanı qəbul etmək olar.

Bəzi xəstəliklər zamanı bu dəmləmənin qəbulu əks-göstəriş sayılır. Ona görə də öncə həkimlə məsləhətləşin.

# Alimlər hüceyrələrin qocalmamasına çarə tapdılar

**Böyük Britaniyanın "Nyukasl" Universitetinin alimləri vaxtı geriyə çevirib hüceyrələrin qocalmasının qarşısını necə almağın sirrini açıb.**

Britaniya mediasının xəbərinə görə "enerji qoruyucuları" adlanan mitoxondriyalar qocalmanın əsas faktoru hesab edilib. Mütəxəssislər qeyd ediblər ki, mitoxondriyalar qocalmaqda olan hüceyrələrdən çıxarılsa, dağıdıcı proses dayanacaq və sistem xeyli cavanlaşacaq.

Mitoxondriyaları çox zaman "batareya" adlandırırlar. Bu, onunla bağlıdır ki, onlar hüceyrələrin fəaliyyəti və bütövlükdə insan orqanizmi üçün zəruri olan enerjinin paylanmasını həyata keçirir. İnsan yaşlandıqca orqanizmdə tədricən müxtəlif dərəcəli zədələr yaranır.



Bunlar iltihab proseslərini sürətləndirir, nəticədə qocalma prosesi inkişaf edir. Mitoxondriyalar laboratoriya şəraitində hüceyrələrdən çıxarılanda qocalma prosesini dayandırmaq mümkün olub, çünki iltihablı molekulların və gen ekspressiyalarının səviyyələri eynən gənclərinki kimi olub.

Alimlər əldə etdikləri nəticəyə əsaslanaraq, hüceyrələrin qocalma tempini yavaşlatmağa kömək edəcək metodlar üzərində çalışırlar.

# Ölümə aparan 6 vərdiş

**Elə pis adətlərimiz vardır ki, bizi ölümə tərəf sürükləyir. Bu adətlərdən altısı aşağıdakılardır:**

**1.** 7 saatdan çox əyləşmək. Mütəxəssislər yaşı 45-dən çox olan 230 nəfərin üzərində apardıqları tədqiqatdan belə nəticəyə gəliblər ki, gün ərzində 7 saatdan çox əyləşənlər təqribən 6 il ömürlərini azaldırlar.

**2.** 8 saatdan çox yatmaq. O insanlar ki, gecəni 8 saatdan çox yatırlar, beyin insultu riskinə daha çox məruz qalırlar. Bu təhlükə qadınlar üçün daha çoxdur.

**3.** Hərəkətsiz olmaq. Saatlarla televizor qarşısında əyləşmək, gün ərzində yatmaq, kalorini yandırmamaq və hərəkətsiz olmaq ölüm riskini artırar. Bu cür insanlarda xərçəng, parkinson, qaraciyər xəstəlikləri riski daha çoxdur.

**4.** Alkoqol ölüm riski üçün birinci sırada durur. Alkoqol içmək bir çox xərçəng xəstəliklərinə yol açır.

**5.** Siqaret çəkmək. Tütün bir çox xərçəng xəstəliklərinin yaranmasına şərait yaradar. O cümlədən: ağciyər, öd yolu xərçəngi kimi.

**6.** Yağlı və şirin yeməklər. Çəkinin artıq olması, həddən artıq köklük tez ölümə səbəb olar. Ona görə də yağlı və şirin qidaların miqdarını tənzimləmək lazımdır ki, həddi aşmasın. Əgər qidanız yüngül olarsa, daha sağlam həyat tərzi sürə bilərsiniz.





## Ac dəniz aslanı restorana hücum etdi

**ABŞ-ın Kaliforniya ştatında San Dieqo kendində ac bir dəniz aslanı lüks bir restorana basqın edib. Restoranın Fransız baş aşpazı deyib ki, dəniz aslanını restoranın en lüks masası olan 65 saylı masanın yanında yaxalayıblar. Dişi dəniz aslanı aclıqdan restorana daxil olub və yemək axtarıb. Restoranın işçiləri hadisə ilə bağlı yaxınlıqdakı zooparkın xilasedicilərinə məlumat veriblər. Onları heyvanı restoranda zərərsizləşdiriblər və təsdiqləyiblər ki, heyvan uzun müddət imiş aclıq çəkirmiş. Çünki onun çəkisi normadan iki dəfə az olub.**




**QOÇ** - Böyük bir layihəni həyata keçirmək fikrindəsiniz. Amma nədən və necə başlamağı bilmirsiniz. Tərəddüd etməyin. Çünki indi hakim bürc sizsiniz və risk sizi müvəffəqiyyətə qovuşduracaq.

**BUĞA** - Planetiniz olan Veneranın aktivlik nöqtəsində dayanması ümumi ovqatınıza yaxşı təsir göstərəcək. Bu hal bir xeyli sürəcək. Odur ki, tərəddüddən qorxmayın, vacib planları həyata keçirməyə çalışın.

**ƏKİZLƏR** - Səhər saatları müəyyən qədər gərginliklə başlasa da, bu heç də qazanacağınız uğurlara sipər çəkməyəcək. Odur ki, narahat olmayın və bəxtinizə inanın. Gecəni mütləq öz evinizdə keçirin.

**XƏRÇƏNG** - Bəri başdan əmin olun ki, gün ərzində heç bir qanqaraçılığı və ya uğursuzluqla rastlaşmayacaqsınız. Əksinə, ətrafınızda olanların əksəriyyəti sizə xoş ovqat bəxş edəcək.

**ŞİR** - Ailə-sevgi münasibətlərində, eləcə də fəaliyyət zəminində bəzi qalmaqallar gözlənilir. Özünüzü ələ alın. Tələsik qərar çıxarmayın. Lazım gəlsə, təcrübəli adamlarla məsləhətləşin.

**QIZ** - Ulduzlar göstərir ki, ayın uğurlu bir gününü yaşayacaqsınız. Sürprizlər də öz yerində. Göy qübbəsi saat 17-dən sonra təmiz havada gəzinməyi, qonaq getməyi məsləhət görür.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimdə aktivliyinizi artırmağa ehtiyac var. Sevindirici bir yeniliklə rastlaşma ehtimalınız böyükdür. Axşamsa yaxın ünvanlara qonaq getmək məsləhətdir.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvimdə səhhətinizlə bağlı problemlər, həmkarlarınızla mübahisələr, həmçinin iştahasızlıq daxili sabitliyinizi poza bilər. Buna baxmayaraq tədbirli olun.

**OXATAN** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız aşağı səviyyədə olacaq. Həmin ərəfədə neytral və təmkinli olun. Sonrakı müddətdə isə bir neçə sürprizlə rastlaşacaqsınız.

**OĞLAQ** - Ağlabatmayan, riskli işlərdən uzaq olmaqla qarşıya qoyduğunuz planların əksəriyyətini reallaşdıra bilərsiniz. Saat 13-16 arası perspektivli təkliflər, təzə xəbərlər mümkündür.

**SUTÖKƏN** - Mənfi enerjili Ayın bürcünüzdə qərar tutması sizin üçün süstlük yaradacaq. Bu səbəbdən də qeyri-ənənəvi addımlar atmaqdan çəkinin. Daha çox gözləmə mövqeyində durun.

**BALIQLAR** - İxtiyarınızda olan bu təqvimin ümumi görüntüsü daha çox gərginliyə yaxındır. Odur ki, əsəblərinizi cilovlamağa ehtiyac duyulur. Nahardan sonra isə qazanmaq ehtimalınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İmperatorun möhürü 235 min dollara satıldı



**Üzərində əqrəb işarəsi olan qızıl möhür Mumbay auksionunda rekord qiymətə satılıb. Musavat.com xəbər verir ki, adıçəkilən möhürü 235 min dollara alıblar. Məlumata görə, bu qızıl pul imperator Cahangirin dövründə, yəni 400 il əvvəl kəsilib. Qızıl pulun yeni sahibi məxfi qalmaq istəyən mumbaylı biznesmen olub. İlk dəfə qızıl möhür Cahangirin atası, imperator Əkbər tərəfindən 1562-ci ildə buraxılıb. Bu pul çox yüksək əyara malikdir (980 əyar) və çəkisi isə 11 qramdır.**

Səhifəni hazırladı: SULTAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300